RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 252 (9419) 19 NOYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Küllükdən dirçəldilən şəhərin bayramı

## İlham Əliyevin rəhbərliyi ilə Ağdam tezliklə dünyanın ən gözəl və "ağıllı" şəhərlərindən birinə çevriləcək

**İşğaldan əvvəl Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi sayılırdı.**

**Cənab İlham Əliyevin iradəsi və göstərişləri əsasında isə yeni Ağdam Qarabağın iqtisadi mərkəzinə çevriləcəkdir.**

Prezidentimizin daha bir tapşırığı olmuşdur:

*- Şəhərsalma sahəsində dünyanın harasında yaxşı nə varsa, ondan Ağdamda da olmalıdır!*

"Kənd rayon mərkəzi" - sovet dövründən qalma belə bir ifadə var.

Bu, paytaxtdan kənarda yerləşən və şəhər statusu daşıyan rayon mərkəzlərinə aiddir.

**Dövlət başçısı İlham Əliyevin Şərqi Zəngəzurda və Qarabağda saldırdığı yaşayış məskənlərində isə müasirlik və rahatlıq baxımından şəhərlə kənd arasında heç bir fərq yoxdur!**

Hamısı "ağıllı" yaşayış məntəqələridir.

Buna köhnə Ağdamda olmayan yenilikləri misal göstərmək olar.

YENİ AĞDAM ŞƏHƏRİNDƏ:

■ Təkərsiz tramvaylar cövlan edəcəkdir;

■ Uzunluğu 79 kilometr olan velosiped yolu çəkiləcəkdir;

■ Ümumi uzunluğu 2 kilometr olan su kanalında motorlu qayıqlar üzəcəkdir;

■ Süni yaradılmış göllər və şəlalələr şəhərə xüsusi gözəllik verəcəkdir;

■ İnsanların mənalı istirahəti, dincəlmələri üçün park və xiyabanlar, uşaqlar üçün karusellər, istirahət guşələri yaradılacaqdır;

■ Ən böyük sənaye məhəlləsi, Qarabağ Universiteti Ağdamda olacaqdır;

■ Bir-birindən yaraşıqlı, rahat mənzilli çoxmərtəbəli yaşayış evləri, müasir tələblərə cavab verən məktəblər, uşaq bağçaları, mədəniyyət müəssisələri, ictimai binalar da öz yerində!

**Cənnətə çevrilən Qarabağın baş şəhəri - respublikanın dördüncü şəhəri olacaq Ağdam düşmənə gözdağı, Azərbaycan üçün isə qürur mənbəyi rolunu oynayacaqdır!**

❖❖❖

**Ağdamı küllükdən dirçəldən ən əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən savaşında qazandığı hərb, diplomatiya və informasiya sahəsindəki tarixi qələbədir!**

Ağdamı dirçəldən həm də:

■ Qüdrətli Azərbaycan Ordusu, rəşadətli əsgər və zabitlərimizdir!

■ Qızıl qanları ilə qələbəmizi təmin edən şəhidlərimizdir!

■ Düşmənin canına vic-vicə salan xüsusi təyinatlılarımız, qazilərimizdir!

■ Xalqımızın sarsılmaz birliyi, düşmənə qarşı mübarizədə "dəmir yumruğ"a çevrilməsidir!

■ Azərbaycanın iqtisadi gücü, tükənməz imkanlarıdır!

■ Ən nəhayət, Heydər Əliyev siyasi kursuna sədaqətimiz, bu yolla daim qələbələrə doğru irəliləməyimizdir!

Çox keçmədən bütün dünya "Qafqazın Xirosiması"nın yerində cənnət Qarabağın müasir, əvvəlkindən də gözəl Ağdamını görəcəkdir!

→ 4

# Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Oman xalqına daim firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2023-cü il*

# Azərbaycan Ermənistana beşinci dəfə yenilənmiş sülh sazişi layihəsi təqdim edib

***Hikmət HACIYEV:*** "Avropa institutları regionda sülh gündəminin təşviqi üçün problemin deyil, həllin bir hissəsi olmalıdırlar"

Minsk qrupunun həmsədrliyi uğursuzluğa düçar oldu, çünki onun məqsədi Azərbaycan ərazisinin Ermənistanın işğalı altında qalmasının davam etməsindən ibarət idi. Biz hərbi işğala son qoyduq. Azərbaycan artıq sülhü və Ermənistanla münasibətlərin normallaşmasını prioritet hesab edir. Lakin istənilən sülh sazişi iki tərəfin iştirakını tələb edir və Ermənistan xoş məram nümayiş etdirməlidir. Biz Ermənistana sülh sazişinin beşinci yenilənmiş layihəsini təqdim etdik, lakin artıq iki aydır ki, onlar reaksiya vermirlər.

→ 3

# Onlara sülh deyil, savaş lazımdır

"Demokratiya carçıları" insanların, dövlətlərin hüquq və azadlıqlarını tapdalamağa öyrəşiblər

→ 7

# Regiondakı gərginliyin ən böyük səbəbkarı Ağ Evdir

ABŞ bu gün Qəzzada baş verənlərin və Rusiya-Ukrayna qarşıdurmasının gərginləşməsinin əsas müəllifidir

→ 7

# "Bacılar"ın sinxron yaramazlıqları

Fransada və Ermənistanda sinaqoqlar eyni vaxtda təhqir olunur

→ 7

# Quruculuq təntənəsi

Bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq meydanına, cənnətməkana çevrilib

Böyük qayıdış proqramının uğurla icra edilməsi sayəsində artıq üç mindən çox keçmiş məcburi köçkün öz yurduna qayıdıb. 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə sakinlərinin qaytarılması ilə uğurlu start verilən Böyük Qayıdışla Tərtərin Talış, Laçının Zabux kəndlərinə, eləcə də Laçın və Füzuli şəhərlərinə mərhələli şəkildə köç həyata keçirilib.

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 325 ailə (1245 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 71 ailə (291 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 3425 keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq keçmiş məcburi köçkünün geri dönməsi nəzərdə tutulur.

→ 8

# Zaman dəyişib, xəyallar reallığa çevrilir

Üç il əvvəl "Ağdama gedirik..." ifadəsini dilimizə gətirsəydik, yəqin ki, buna heç kim inanmayacaqdı. Amma bu gün deyilənlərə və yazılanlara kimsə şübhə etmir. Çünki artıq zaman dəyişib. Daha doğrusu, zaman özü çox şeyi dəyişib. İndi Ağdama, eləcə də, illərcə əvvəl erməni qəsbkarlarının işğalında olmuş başqa şəhər və kəndlərimizə getmək xəyal deyil, reallıqdır. Xəyalları isə reallığa Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclü, qüdrətli Azərbaycan Ordusu 44 gün ərzində davam edən Vətən müharibəsində çevirdi.

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlandı. Ordumuzun cəsur zabit və əsgərləri torpaqlarımızın azadlığı uğrunda başlanan bu döyüşlərdə erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdular. Bu güclü zərbələr qarşısında dayana bilməyən düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur oldu. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 28 ildən bəri erməni qəsbkarlarının tapdağında qalmış torpaqlarımız işğaldan azad edildi. İndi ona görə də, "Ağdama gedirik..." sözünü dilimizə gətirəndə də, yazanda da heç kimə qəribə gəlmir. Çünki artıq torpaqlarımız öz əbədi-əzəli sahiblərinin ixtiyarındadır. Buna görə də tam inamla, qətiyyətlə həm yazır, həm də fəxarətlə deyirik ki, Ağdama gedirik...

→ 6

# Yurda dönəcəyimizə inamımızı heç vaxt itirmədik

Erməni işğalçıları onun qoynunda doğulduğu el-obaya hücum çəkib odlara qalayanda 11 yaşı olub. Yaşı az olsa da, Şahin şahidi olduğu hadisələri uşaq yaddaşına yazıb. Yaddaşında iz salan bu qanlı hadisələr onun ermənilərə qarşı nifrət hissini daim artırıb. Kiçik yaşlarında doğma ocaqlarından didərgin düşən Şahin bir gün, bir an olsun belə evlərini, oxuduğu məktəbi yaddan çıxarmayıb. Günlərin birində yurda dönəcəklərinə inamını heç vaxt itirməyib.

***

"Biz, onların nəvələri də illərdən sonra erməni vandalizmi ilə üz-üzə qaldıq. Nəhayət, tarixi Zəfər qazandıq. Bütün qaçqınlar doğma ocaqlarına qayıdacaqlar. Yaxın günlərdə ordu sıralarından ehtiyata buraxılmışam. Buna baxmayaraq, əgər Vətən əmr etsə, yenə də hər an döyüşə getməyə hazıram".

→ 9

## Ç.Ə.Fərzəliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Çingiz Əbdül Məcid oğlu Fərzəliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,18 noyabr 2023-cü il*

## V.V.Mustafayevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Valeh oğlu Mustafayev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## V.V.Mustafayevin Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Vüqar Valeh oğlu Mustafayev Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## M.Q.Quliyevin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## M.Q.Quliyevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində və " Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240, № 12, maddə 1392; 2023, № 1, maddə 14, № 2, maddə 207, № 3, maddə 338, № 7, maddələr 896, 904) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43-cü maddənin 2-ci hissəsinin "ğ" bəndinə "başlayanlar" sözündən sonra "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər" sözləri əlavə edilsin;

1.2. 51-ci maddənin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Bu Məcəllənin 52-ci maddəsində göstərilən hallar istisna olmaqla, əmək müqaviləsi işçinin peşəkarlıq səviyyəsini və müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədilə sınaq müddəti müəyyən edilməklə bağlanıla bilər. Altı ay müddətinədək bağlanılmış əmək müqaviləsində ən çoxu iki həftə, digər əmək müqavilələrində isə ən çoxu üç ay sınaq müddəti müəyyən edilir.";

1.3.307-ci maddənin 3-cü hissəsində "işçiyə "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə fərdi şəxsi hesab açılır, habelə" sözləri "işçinin dövlət sosial sığorta sistemində fərdi uçotu "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir, habelə ona" sözləri ilə əvəz edilsin;

1.4. həmin Məcəlləyə 1-ci əlavə - "Əmək müqaviləsinin (kontraktının) nümunəvi forması"nın 1.1-ci bəndinə "başlayanlar" sözündən sonra "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər" sözləri əlavə edilsin.

**Maddə 2.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899, № 12, maddə 1332; 2022, № 6, maddə 583, № 8, maddə 829, № 12, maddələr 1369, 1387; 2023, № 1, maddə 44, № 2, maddələr 195, 212, 217) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.6-cı və 1.0.7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"1.0.6. **dövlət sosial sığorta sistemində fərdi uçot** - Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq əmək pensiyası və sosial müdafiə sahəsində digər hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunana dair "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində nəzərdə tutulan məlumatların uçotunun təşkili və aparılmasıdır;

1.0.7. **fərdi şəxsi hesab** - hər bir sığortaolunana müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sosial sığorta nömrəsi ilə açılan, dövlət sosial sığorta sistemində fərdi uçot məlumatlarının əks olunduğu hesabdır;";

2.2. 1.0.8-ci, 1.0.9-cu, 1.0.10-cu (hər iki halda), 1.0.12-ci, 1.0.13-cü, 1.0.17-ci, 6.3-cü maddələrə, 7-ci maddənin birinci hissəsinə, 10.2-ci maddənin dördüncü abzasına (hər iki halda), 10.3-cü maddənin dördüncü abzasına, 12.1-ci maddənin ikinci cümləsinə, 13.3-cü maddənin dördüncü abzasına (hər iki halda), 13.3-1-ci maddənin birinci (hər iki halda) və ikinci cümlələrinə, 18.5-ci, 18.6-cı, 22-1.1-ci maddələrə, 27.1-ci maddənin birinci, ikinci və üçüncü (hər iki halda) cümlələrinə və 29.1-1-ci maddəyə "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

2.3. 1.0.16-cı maddənin birinci cümləsinə "fərdi uçot" sözlərindən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.0.7-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231, № 4, maddə 653, № 7, maddə 1220, № 8, maddə 1390; 2021, № 7, maddə 740, № 8, maddə 910; 2022, № 6, maddə 610, № 12, maddə 1412) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "Qanununun" sözündən sonra "1.0.7-ci," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 1.0.7-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895; 2023, № 2, maddələr 197, 207, № 4, maddə 450, № 7, maddə 885) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1.9-cu maddəyə "müəssisələrində" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində" sözləri əlavə edilsin.

2. 13-cü maddə üzrə:

2.1. adına "sosial" sözündən əvvəl "dövlət" sözü, "yerləşdirilməsi" sözündən sonra "və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri əlavə edilsin;

2.2. 13.2-ci maddədə "şəxslərin (ailələrin)" sözləri "şəxsin (ailənin)" sözləri ilə, "müəssisələrinə yerləşdirilməsi" sözləri "müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1014-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1014-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118; 2023, № 1, maddə 51, № 3, maddə 351, № 7, maddə 931) 1.2.1-ci və 1.4.1-ci yarımbəndlərinə "müəssisələrində" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1624 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1791; 2020, № 8, maddə 1039) ilə təsdiq edilmiş "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi"nin 2.2.12-ci yarımbəndinə "müəssisələrində" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219, № 7, maddələr 935, 974) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 9.11-ci bəndində "dövlət uşaq müəssisələrinin" sözləri "uşaqlar üçün dövlət sosial xidmət müəssisələrinin, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; 2023, № 4, maddə 493, № 7, maddə 936) ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"nin 3.1.13-cü yarımbəndində "və təhsil müəssisələrinin" sözləri ", habeləümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri ilə əvəz edilsin.

5. "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 dekabr tarixli 1487 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1352) 4.1-ci bəndində "və təhsil müəssisələrinin valideynlərini itirmiş və" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374; 2021, № 8, maddə 946; 2022, № 5, maddə 534; 2023, № 3, maddə 391, № 4, maddə 534, № 6, maddə 810, № 7, maddə 1018) ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın "5. Fəaliyyət Planının icrası üçün Tədbirlər Planı" hissəsinin 5.3.1-ci yarımbəndinə "müəssisələrinin" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1218) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 6.1.3.1-ci və 6.1.3.4.1-ci yarımbəndlərdə "və təhsil müəssisələrinin" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri ilə əvəz edilsin;

7.2. 6.1.3.2.2-ci və 6.1.3.3.2-ci yarımbəndlərdə "və təhsil müəssisələrinin" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin" sözləri ilə əvəz edilsin;

7.3. 8.3.2-ci yarımbənd üzrə:

7.3.1. "Tədbirin adı" sütununda "və təhsil müəssisələrinin" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin" sözləri ilə əvəz edilsin;

7.3.2. "ilkin nəticələr" sütununda "və təhsil müəssisələrinin valideynlərini itirmiş və" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin valideynlərini itirmiş və ya" sözləri ilə, "yekun nəticələr" sütununda "və təhsil müəssisələrinin" sözləri ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərinin" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanında (Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 848 nömrəli və 2020-ci il 30 yanvar tarixli 917 nömrəli fərmanları) dəyişikliklər təsdiq edilsin.

2. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## "Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 176; 2001, № 10, maddə 640, № 11, maddə 707; 2002, № 9, maddə 555; 2003, № 10, maddə 568; 2004, № 12, maddə 1004; 2005, № 12, maddə 1104; 2007, № 11, maddə 1106; 2008, № 1, maddə 7; 2010, № 10, maddə 857; 2018, № 4, maddə 683; 2022, № 11, maddə 1260) 3-cü hissəsinin birinci abzasından "kosmik-peyk rabitə vasitələrinin," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

## "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 567 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 582; 2003, № 8, maddə 441; 2005, № 9, maddə 800; 2009, № 6, maddə 419; 2014, № 7, maddə 790; 2015, № 3, maddə 265; 2017, № 5, maddələr 808, 843; 2020, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddələr 566, 579) ilə təsdiq edilmiş "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsi"nin 1.1-ci bəndinə "başlayanlar"sözündən sonra "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, №8, maddə 871,№ 11, maddə 1261; 2023, № 3, maddə 361, № 5, maddə 650, № 7, maddələr 936, 958) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin4.1.12-2-ci yarımbəndində "işəgötürənlərin" sözü "sığortaedənlərin dövlət sosial sığorta sistemində" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə (ikinci halda) "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin.

3. "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644; 2019, № 1, maddə 73; 2021, № 5, maddə 448, № 9, maddə 987) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın 2.1-ci bəndinə "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası" üzrə:

3.2.1. 2.3-cü bəndin birinci cümləsində "uçot sistemində qeydiyyatı" sözləri "şəxsi hesabı" sözləri ilə əvəz olunsun və həmin bəndin ikinci cümləsinə (hər iki halda) "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2.2. 3.2-ci bənddə "sığortaolunan şəxsin uçotu dövründə sosial sığorta nömrəsi ilə açılmış fərdi" sözləri "sığortaolunanın fərdi şəxsi" sözləri ilə əvəz edilsin;

3.2.3. 3.3-cü bəndə "Fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2.4. 5.2-ci bəndə "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018,№ 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922,№ 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022,№ 12, maddə 1448; 2023, № 2, maddə 219,№ 7, maddələr 935, 974) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8-ci hissənin adı aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 8. | Dövlət sosial sığorta sistemində fərdi uçotla bağlı göstərilən xidmətlər |

4.2. 8.1-ci bənd ləğv edilsin;

4.3. aşağıdakı məzmunda 8.3-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 8.3-1. | sığortaolunanın fərdi şəxsi hesabındakı məlumatlarda dəyişiklik edilməsi ilə bağlı müraciətlərin qəbulu |

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 226, № 11, maddə 1719; 2020, № 12 (I kitab), maddə 1480; 2021, № 6 (I kitab), maddə 579; 2022, № 4, maddə 323) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"na 2 nömrəli əlavə - "Kadrlar uçotunun şəxsi vərəqəsi"nin "Dövlət sosial sığorta sistemində sosial sığorta nömrəniz (SSN)" sətrində "Dövlət sosial sığorta sistemində sosial" sözləri "Sosial" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 842; 2020, № 12 (I kitab), maddə 1501; 2021, № 8, maddə 923) ilə təsdiq edilmiş "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin 1.1-ci bəndində "istisna olmaqla, dövlət" sözləri "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla," sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; 2023, № 4, maddə 493,№ 7, maddə 936) ilə təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1.5-ci yarımbənddən "və uçotdan çıxarılmasını" sözləri çıxarılsın və həmin yarımbəndə "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin;

7.2. 3.1.4-cü yarımbənddən "dövlət sosial sığorta nömrəsi əsasında" sözləri çıxarılsın;

7.3. 3.2.10-cu yarımbəndə "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2023-cü il*

# Azərbaycan Ermənistana beşinci dəfə yenilənmiş sülh sazişi layihəsi təqdim edib

## ***Hikmət HACIYEV:*** "Avropa institutları regionda sülh gündəminin təşviqi üçün problemin deyil, həllin bir hissəsi olmalıdırlar"

**"Azərbaycan Ermənistana beşinci dəfə yenilənmiş sülh sazişi layihəsi təqdim edib".**



"Trend"in məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə jurnalistlərə deyib.

Qanunsuz erməni rejiminin tərk-silah olunaraq Azərbaycan ərazisini tərk etdiyini bildirən Hikmət Hacıyev qeyd edib ki, bu, Ermənistanla Azərbaycan arasında sülh razılaşması yolunda maneələri aradan qaldırır: "Düşünürük ki, iki ölkə arasında antaqonizmə və düşmənçiliyə son qoymaq, Azərbaycanın Ermənistana təklif etdiyi beş prinsipə əsaslanan davamlı sülhü inşa etmək üçün tarixi imkan yaranıb". Prezidentin köməkçisinin sözlərinə görə, Azərbaycan daha geniş Avrasiya xəritəsində ən uzunmüddətli münaqişələrdən birinin həll modelini yaradıb.

Hikmət Hacıyev həmçinin keçmiş Minsk qrupunun arzuolunmaz fəaliyyəti, münaqişənin həlli istiqamətində həyata keçirilən prosеslər və sülh müqaviləsi ilə bağlı hazırkı durumu da dəyərləndirib: "Minsk qrupunun həmsədrliyi uğursuzluğa düçar oldu, çünki onun məqsədi Azərbaycan ərazisinin Ermənistanın işğalı altında qalmasının davam etməsindən ibarət idi. Biz hərbi işğala son qoyduq. Azərbaycan artıq sülhü və Ermənistanla münasibətlərin normallaşmasını prioritet hesab edir. Lakin istənilən sülh sazişi iki tərəfin iştirakını tələb edir və Ermənistan xoş məram nümayiş etdirməlidir. Biz Ermənistana sülh sazişinin beşinci yenilənmiş layihəsini təqdim etdik, lakin artıq iki aydır ki, onlar reaksiya vermirlər".

Hikmət Haçıyev Cənubi Qafqazda yeni reallıqların formalaşdığını, qanunilik və legitimliyin bu yeni reallıqların əsasında dayandığını qeyd edib: "Biz regional təhlükəsizliyin yeni, ədalətə, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımağa və bütün ərazi iddialarına son verməyə əsaslanmış arxitekturasını inşa etmək istəyirik. Fikrimcə, biz sülhə nail olmalıyıq və əlavə tərəfdaşlar bu sazişi dəstəkləyə bilər".

Prezidentin köməkçisi deyib ki, münaqişənin "dondurulduğu" dövrdə Avropa Parlamentində azərbaycanofobiya və Azərbaycana qarşı islamofobiya təzahür edirdi. "Aİ Şurası bu yaxında Azərbaycanı tənqid edən bəyanat yayıb və biz bunu yersiz hesab edirik. Azərbaycanın əraziləri işğal altında olduğu dövrdə Avropa institutları heç vaxt ədalətlə yanaşmayıb. Uzun illər ərzində Gürcüstan, Moldova, Ukrayna və Azərbaycanda separatçı birləşmələrə qarşı müxtəlif yanaşmalar mövcud olub", - deyə Prezidentin köməkçisi qeyd edib.

Hikmət Hacıyev Aİ-nin Fransa kimi bəzi üzv ölkələrinin Ermənistanda militarizasiya proqramını başlatdığını da əlavə edib: "Biz militarizasiyanı dəstəkləmirik. Ermənistana militarizasiya proqramı lazım deyil. Sülh proqramı lazımdır. Fransa Ermənistana raket silahları ilə zirehli maşınlar göndərir. Ermənistan Fransadan, həmçinin, üç radiolokasiya sistemi və yaxın məsafəli "Mistral" "yer-hava" sinifli raketlər satın alır. Biz həmişə Fransa kimi üzv dövlətlərə Azərbaycan ərazisində separatizmi dəstəkləməməsi və regionumuzda erməni revanşizmini və ya geosiyasi oyunları təşviq etməmələri barədə xəbərdarlıq etmişik. Fikrimizcə, tarixi imkan yaranıb və müvafiq Avropa institutları regionda sülh gündəminin təşviqi üçün problemin deyil, həllin bir hissəsi olmalıdırlar".

# Türkiyə Yüksək Seçim Kurulunun nümayəndə heyəti Şuşa şəhəri ilə tanış olub

Türkiyə Respublikasının Yüksək Seçim Kurulunun (YSK) sədri Ahmet Yenerin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Qarabağın incisi, ölkəmizin tarixinin və mədəniyyətinin simvolu olan Şuşa şəhərini ziyarət edib. MSK sədri Məzahir Pənahov və komissiya üzvlərinin də qatıldıqları səfər çərçivəsində qonaqlar Şuşa şəhəri ilə ətraflı tanış olublar.






AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin Azərbaycan mədəniyyətinin paytaxtı ilə tanışlığı Xurşidbanu Natəvanın evi və Xan qızı bulağı olan ərazidən, qala divarlarından başlayıb. Onlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb. Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala divarları da işğal dövründə erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.



Qonaqlar Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə də baş çəkiblər. Bildirilib ki, kompleks Şuşa şəhərinin ən səfalı yeri olan Cıdır düzünə yaxın ərazidə - dahi şairin məzarı üzərində inşa edilib. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası da erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra məqbərə təmir və bərpa olunaraq Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Türkiyə Yüksək Seçim Kurulunun nümayəndə heyəti Cıdır düzündə də olub, oradan açılan gözəl mənzərəni seyr edib. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

Yuxarı Gövhər ağa məscidini ziyarət edən qonaqlar Vətən uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərə rəhmət diləyib, ruhlarına dualar oxuyublar.

Türkiyənin Yüksək Seçim Kurulunun sədri Ahmet Yener müsahibəsində deyib: "Şuşanı görməkdən, türk dünyasının mədəniyyət paytaxtında olmaqdan son dərəcə məmnunuq. Şuşanın inşasına başlanmasını görmək bizi sevindirir. Şuşada keçmişlə gələcəyin birlikdə inşa edildiyinin şahidi olduq. Türk dünyasının yeni xoşbəxt günlərinin başlanğıcını görmək və bu həyəcanı yaşamaq olduqca sevindiricidir. İnşallah, inşaat işləri yekunlaşanda, Şuşa əvvəlki günlərinə döndüyündə yenidən gəlib ziyarət edərik. Biz 44 günlük müharibədə Azərbaycan Ordusunun və xalqının nə qədər çətinliklərə sinə gərməklə mübarizə apardığını gördük. Şuşa var olsun! Qarabağ var olsun! Azərbaycan var olsun!"

MSK sədri Məzahir Pənahov: "Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Azərbaycan tarixinin ən böyük qələbəsini qazanıb. Bu gün Şuşada aparılan tikinti-quraşdırma işlərinin miqyası böyük təsir bağışlayır. İnanıram ki, qısa müddətdən sonra Şuşa şəhəri, ümumilikdə Qarabağ Azərbaycanın ən gözəl, ən çiçəklənən bölgəsi olacaqdır. Bu qələbəni bizə qazandıran Ali Baş Komandana minnətdarlığımı bildirir, qazilərə cansağlığı, şəhidlərə rəhmət diləyirəm".




# Küllükdən dirçəldilən şəhərin bayramı

## İlham Əliyevin rəhbərliyi ilə Ağdam tezliklə dünyanın ən gözəl və "ağıllı" şəhərlərindən birinə çevriləcək

Ağdam yiyəsizliyin qurbanı oldu!

Ağdam sahibsizliyin badına getdi!

**Hakimiyyətə gəlmək uğrunda AXC-Müsavat cütlüyünün qeyri-sivil mübarizəyə üstünlük verməsi, iqtidara gəldikdən sonra isə naşı və səriştəsiz "idarəetməsi" ölkədə anarxiya yaratdı.**

*Nə vaxtında ordu quruldu, nə torpaqların müdafiəsi təşkil olundu, nə də digər zəruri addımlar atıldı!*

*Nə düzgün daxili və xarici siyasət apara bildilər, nə də tamahlarına yiyəlik etdilər!*

*Şəxsi maraqlarını ümummilli mənafedən üstün tutmaları, dövlət idarəçiliyindən xəbərsiz olmaları Azərbaycan xalqının fəlakəti ilə nəticələndi.*

**Onların xəyanət əməlləri səbəbindən əvvəlcə Laçın, sonra Şuşa, daha sonra Ağdam işğala məruz qaldı.**

**Özləri isə vəzifələrini "donduraraq" qaçıb aradan çıxdılar.**

❖ ❖ ❖

*Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi sayılırdı.*

**Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ölkənin birinci intibahı baş vermişdi.**

Bu intibahdan Ağdama da böyük pay düşmüşdü.

Rayonun geniş ərazisi, münbit torpağı, zəhmətsevər insanları vardı.

Kənd təsərrüfatının bütün sahələrində - üzümçülük, pambıqçılıq, taxılçılıq, heyvandarlıq, bitkiçilik, baramaçılıq, şərabçılıq və s. sahələrdə bol məhsul götürülür, yüksək məhsuldarlığa nail olunurdu.

Dövlət plan və tapşırıqlarının artıqlaması ilə ödənilməsi, yeni təsərrüfatçılıq metodlarından bacarıqla istifadə sayəsində əhalinin gəliri əhəmiyyətli dərəcədə artmış, rifahı yüksəlmişdi.

Bütün bunlar kənd və qəsəbələrin simasını da büsbütün dəyişmiş, müasirləşdirmişdi.

*İnsanlar dövlətin yaratdığı şəraitdən istifadə etməklə özlərinə xoş güzəran qurmuşdular: kənd yerlərində yaşayanlar belə ağ mişar daşından ikimərtəbəli evlər tikdirmiş, müasir mebellər almış, məişət cihazlarından geniş istifadəyə başlamışdılar.*

Demək olar ki, hər ailənin fərdi minik maşını vardı.

Ağdamlılar sülh şəraitində firavan, rahat həyat sürürdülər...

**Əvvəlcə Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi, sonra "yenidənqurma" adlı oyunbazlığa başlanması, Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, ən nəhayət, "Dağlıq Qarabağ problemi" adlı məkrli oyuna start verilməsi bütün bu xoşbəxt və sevincli günlərə son qoydu.**

❖ ❖ ❖

*"Böyük Ermənistan" xülyasına düşənlərin Qarabağı Azərbaycandan qoparmaq uğrunda mənfur planlarının icrasına başlandığı bir vaxtda ölkəyə maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz adamların rəhbərlik etməsi vəziyyəti daha da mürəkkəbləşdirdi.*

Yanlış və qətiyyətsiz mövqe, səhv siyasət, vaxtında ordu qurulmaması, ən nəhayət, müharibənin dövlət səviyyəsində aparılmaması sonda böyük faciələrə səbəb oldu.

Münaqişənin ilk dövrlərində Ermənistandan gəlmiş "saqqallılar" və yerli yaraqlılar Qarabağdakı azərbaycanlıların yaşadıqları kəndlərə hücum çəkir, müxtəlif üsullarla təzyiqlər göstərir, yerli əhali üçün problemlər yaradır və evlərini qoyub getməyə məcbur etməyə çalışırdılar.

**Erməni əhatəsində yaşayanlara arxa durmaq, yardım göstərmək üçün Ağdam bir növ plasdarma çevrilmişdi.**

Gələn yardımlar buraya toplanaraq "yerli bələdçilər" vasitəsilə mühasirə vəziyyətindəki kəndlərə çatdırılırdı.

❖ ❖ ❖

Moskvaya, Sov. İKP MK-ya, "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" prinsipinə bəslənən bütün ümidlər puça çıxdı.

Əslində, Ermənistana və Qarabağ separatçılarına dəstək elə Moskvadan gəlirdi!

*Sov. İKP MK-nın emissarları Azərbaycana səfər edəndə bizi "səbirli və təmkinli" olmağa çağırır, İrəvana gedəndə isə onların ordu yaratmalarına göz yumur, Qarabağdakı ermənilərin "hüquqlarını qoruyacaqlarına" söz verirdilər.*

*Xankəndidəki "miatsum" çağırışlı mitinqləri isə seyr edib göz yummaqla, əslində, separatizmə rəvac verirdilər.*

Cəzasızlıqdan ruhlanan ermənilər əvvəlcə söyüş, daş davasına keçdilər, sonra isə atıcı silahlar səsləndi...

20 noyabr 1991-ci ildə Qarakənd üzərində Azərbaycana məxsus və içərisində ictimai-siyasi xadimlər, dövlət məmurları, jurnalistlər olan vertolyot vurulduqdan sonra məhəlli atışmalar başladı.

**İlk şəhidləri 22 fevral 1988-ci ildə Əli və Bəxtiyarın simasında ağdamlılar verdilər!**

*İlk könüllü özünümüdafiə batalyonları Ağdamda yaradıldı.*

*Sonradan respublikanın bütün guşələrindən gələn vətənpərvər gənclər də həmin batalyonlara üzv oldular.*

**Hadisələrin ilk dövründən Ağdam əvvəlcə münaqişənin, sonra isə müharibənin ən qaynar və qanlı nöqtəsinə çevrildi!**

❖ ❖ ❖

*Moskvanın ikinci addımı keçmiş DQMV-də "xüsusi idarəetmə komitəsi"nin tətbiqi oldu.*

**Bu vasitə ilə, əslində, keçmiş DQMV Azərbaycanın tərkibindən çıxarılaraq guya mərkəzə tabe etdirildi.**

**Həqiqətdə isə separatçıların sərəncamına verildi.**

Üstəlik Ermənistanla Xankəndi arasında sərbəst gediş-gəliş, silah-sursat təchizatı üçün rahat şərait yaradıldı.

Bundan ruhlanan separatçılar keçmiş DQMV ilə Azərbaycanın digər əraziləri arasındakı əlaqələri kəsməyə, azərbaycanlılar yaşayan kəndlərə hücumlar təşkil edərək dinc sakinləri öz evlərindən qovmağa, getməyənləri girov götürərək işgəncələr verməyə, rəsmi Bakıya tam tabesizlik göstərməyə başladılar.

**İlk qurbanlar verən Ağdam bu dəfə ilk məcburi köçkünləri qəbul edərək yerləşdirməyə, yeni şəhidlərin dəfni ilə məşğul olmağa başladı.**

❖ ❖ ❖

*Qarabağda torpaqların müdafiəsi uğrunda qanlı çarpışma, paytaxt Bakıda isə vəzifə kürsüsü uğrunda barışmaz mübarizə gedirdi.*

**Ayaz Mütəllibov prezident kürsüsünü qorumağa, "bəylər" isə həmin kürsünü ələ keçirməyə çalışırdılar.**

**Necə deyərlər, hərə öz hayında idi...**

*Ağdam və külli Qarabağ isə əlisilahlıların qarşısında əliyalın vəziyyətdə qalmışdı!*

*AXC-nin silahlandırdığı batalyonlar isə özlərinin hakimiyyətə gəlməsinə xidmət edirdi.*

Yerlərdəki "könüllü özünümüdafiə batalyonları" arasında əlaqə və koordinasiya yox idi.

Onların sırasında da müxtəlif maraqlara xidmət edənlər vardı!

**Nə müharibə dövlət səviyyəsində aparılır, nə də hərbi əməliyyatlar vahid mərkəzdən idarə olunurdu...**

*Ölkənin müdafiə naziri postunu isə "ortabab riyaziyyat müəllimi", satqın Rəhim Qazıyev tutmuşdu.*

O Rəhim Qazıyev ki Ağdama səfərlərinin birində iki könüllü özünümüdafiə batalyonu arasında qan düşmənçiliyi salaraq rayonun müdafiəsini daha da zəiflətmişdi!

**İnsanların "can bizdən, silah-sursat sizdən" çağırışını AXC-Müsavat cütlüyünün iqtidarı eşitmədi.**

**Düşmən isə Azərbaycanda yaranmış xaos və özbaşınalıqdan, torpaqların müdafiəsinin təşkil olunmamasından istifadə edərək ərazilərimizi sürətlə ələ keçirirdi.**

Ağdamın igid və vətənpərvər gənclərdən ibarət könüllü özünümüdafiə batalyonları nə qədər şücaətlə döyüşsələr də, arxasızlıq və köməksizlikdən məğlub olaraq geri çəkilmək məcburiyyətində qaldılar.

Beləliklə, 6 mindən çox övladını şəhid verən Ağdam məğlubiyyətə uğradı, əhalisi isə məcburi köçkünə çevrildi.

❖ ❖ ❖

Düşmən qarşı-qarşıya döyüşlərdə ağdamlıların onlara vurduqları zərbələri unutmamışdı.

Əvəz çıxmaq üçün əlinə fürsət düşmüşdü.

*Qisasını Ağdamın daşından-torpağından, sahibsiz qalmış evlərindən, bağlarından, meşələrindən, tarixi və dini abidələrindən, hətta qəbiristanlıqlarından belə çıxdı!*

"Şiə qardaşları" iranlılarla əlbir olaraq əvvəlcə boş qalmış evləri yağmaladılar, sonra dəmir dam örtüklərini, taxta materiallarını, daşlarını belə söküb İrana daşıyaraq oradakı tikinti materiallarının satışı bazarında pula çevirdilər.

İşğal dövründə daş üstə daş qoymadılar, bircə salamat bina, ev qalmadı, məscidlər dağıdılıb tövləyə çevrildi, qəbirlər eşilərək ölülərin qızıl dişləri oğurlandı...

**Özlərini "məzlum", "zavallı", "mədəni", "qədim tarixə malik millət" adlandıran ermənilər əsl simalarını, barbar, vəhşi mahiyyətlərini Ağdamda da göstərdilər.**

**Müasir, abad, gözəl Ağdamı "Qafqazın Xirosiması"na çevirdilər!**

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdamın da hayıfını düşməndə qoymadı!**

30 illik işğal dövründə ermənilər dostlarının və havadarlarının köməyi ilə təkcə Ağdamı dağıtmamışdılar, həm də burada yerli relyefdən istifadə etməklə möhkəm müdafiə mövqeləri yaratmışdılar.

Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkında həmin müdafiə xətlərinin bütün "element"ləri əyani şəkildə görmək mümkündür:

- dərin xəndəklər;
- səngərlər;
- mina sahələri;
- ermənilərin "keçilməz" adlandırdıqları bədnam "Ohanyan xətti";
- tikanlı məftillər;
- kameralarla təchiz olunmuş müşahidə məntəqələri;
- dəmir-betondan tikilmiş bunkerlər;
- atəş nöqtələri və s.

*Ermənilər belə hesab edirdilər ki, Azərbaycan bu dəfə də 90-cı illər müharibəsini aparacaq, Ağdam istiqamətindən hücuma keçəcək, canlı qüvvə və zirehli texnika sarıdan ciddi itkilər verərək geriyə çəkiləcək, nəticədə onlar tərəfindən irəli sürülən bütün şərtlərlə razılaşmaq məcburiyyətində qalacaqdır.*

*Paşinyan öz ağlı ilə düşünürdü...*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə XXI əsrin ən yeni müharibəsinə hazırlaşmışdı.**

**Hərbi əməliyyatlar sərhədboyu, görünməmiş sürətlə aparılırdı...**

Ermənistan ordusu gözünü açmağa macal tapmamış qəhrəman əsgər və zabitlərimiz, xüsusi təyinatlılarımız qala şəhəri Şuşanı da ələ keçirərək erməni hərbi hissələrini mühasirəyə aldılar!

**Qorxaqlar və fərarilər ordusu təslim olmasaydı, 20 min nəfərlik hərbi heyəti ən qısa müddətdə məhv ediləcəkdi!**

Ağdamdakı mövqelərdə dayanan düşmən bizə tərəf bir güllə belə atmadan ağ bayraq qaldıraraq təslim oldu!

*On qat müdafiə sistemi heç nəyə yaramadı!*

**Müzəffər Ali Baş Komandanımız Paşinyanı kapitulyasiya aktına qol çəkməyə məcbur etdi.**

**Sonra Ağdamda üçrəngli Azərbaycan bayrağını ucaltdı!**

❖ ❖ ❖

Ermənilərin ən çox "ölüm toxumu" basdırdıqları ərazilərdən biri Ağdamdır!

Minaların təmizlənməsi xeyli vaxt və vəsait tələb edir.

Artıq bu sahədə uğurlu iş gedir.

*Cənab İlham Əliyevin təsdiq etdiyi ilk baş plan isə Ağdama məxsusdur!*

**İşğaldan əvvəl Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi sayılırdı.**

**Cənab İlham Əliyevin iradəsi və göstərişləri əsasında isə yeni Ağdam Qarabağın iqtisadi mərkəzinə çevriləcəkdir.**

Prezidentimizin daha bir tapşırığı olmuşdur:

*- Şəhərsalma sahəsində dünyanın harasında yaxşı nə varsa, ondan Ağdamda da olmalıdır!*

"Kənd rayon mərkəzi" - sovet dövründən qalma belə bir ifadə var.

Bu, paytaxtdan kənarda yerləşən və şəhər statusu daşıyan rayon mərkəzlərinə aiddir.

**Dövlət başçısı İlham Əliyevin Şərqi Zəngəzurda və Qarabağda saldırdığı yaşayış məskənlərində isə müasirlik və rahatlıq baxımından şəhərlə kənd arasında heç bir fərq yoxdur!**

Hamısı "ağıllı" yaşayış məntəqələridir.

Buna köhnə Ağdamda olmayan yenilikləri misal göstərmək olar.

YENİ AĞDAM ŞƏHƏRİNDƏ:

- Təkərsiz tramvaylar cövlan edəcəkdir;
- Uzunluğu 79 kilometr olan velosiped yolu çəkiləcəkdir;
- Ümumi uzunluğu 2 kilometr olan su kanalında motorlu qayıqlar üzəcəkdir;
- Süni yaradılmış göllər və şəlalələr şəhərə xüsusi gözəllik verəcəkdir;
- İnsanların mənalı istirahəti, dincəlmələri üçün park və xiyabanlar, uşaqlar üçün karusellər, istirahət guşələri yaradılacaqdır;
- Ən böyük sənaye məhəlləsi, Qarabağ Universiteti Ağdamda olacaqdır;
- Bir-birindən yaraşıqlı, rahat mənzilli çoxmərtəbəli yaşayış evləri, müasir tələblərə cavab verən məktəblər, uşaq bağçaları, mədəniyyət müəssisələri, ictimai binalar da öz yerində!

**Cənnətə çevrilən Qarabağın baş şəhəri - respublikanın dördüncü şəhəri olacaq Ağdam düşmənə gözdağı, Azərbaycan üçün isə qürur mənbəyi rolunu oynayacaqdır!**

❖ ❖ ❖

30 ilədək müddətdə hər birimiz vətəndaş olaraq sıxıntı çəkdik.

Məcburi köçkünlər yaşayış və dolanışıq sarıdan, qalanlarımız isə mənəvi cəhətdən!

**Amma dövlətimizə olan inamımızı, Prezidentimizə güvənimizi bir an belə itirmədik!**

**Bildik ki, yaman günün ömrü az olur!**

**İnandıq ki, dövlət başçısı İlham Əliyev bizləri doğma el-obaya qaytaracaqdır!**

Yanılmadıq da!

*Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə 44 gün ərzində düşmən ordusunu məhv etdi.*

Sonrakı üç ildə isə müqəddəs torpaqlarımızı murdar ləpirlilərdən təmizlədi!

İndi isə bizi əvvəlkindən də gözəl olacaq doğma yurda qaytarır, sevincimizə sevinc qatır!

*Ötən 30 ildə ancaq işğal günlərini, Vətən həsrətli müsibətli günlərin başlanğıc tarixlərini qeyd edərdik!*

*Ürəyimizdən qara qanlar axa-axa!*

*"Növbəti ildönümünü doğma el-obada keçirək" arzusunu dilə gətirməklə!*

**İndi isə cənab İlham Əliyev şəhər günləri bayramını təsis edib!**

**Yeni şəhər bayramları həm də milli qürurumuzun qaytarıldığı, qalib millətə və dövlətə çevrildiyimiz gündür!**

**Eşq olsun Müzəffər Ali Baş Komandanımıza!**

❖ ❖ ❖

**Ağdamı küllükdən dirçəldən ən əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən savaşında qazandığı hərb, diplomatiya və informasiya sahəsindəki tarixi qələbədir!**

Ağdamı dirçəldən həm də:

- Qüdrətli Azərbaycan Ordusu, rəşadətli əsgər və zabitlərimizdir!
- Qızıl qanları ilə qələbəmizi təmin edən şəhidlərimizdir!
- Düşmənin canına vic-vicə salan xüsusi təyinatlılarımız, qazilərimizdir!
- Xalqımızın sarsılmaz birliyi, düşmənə qarşı mübarizədə "dəmir yumruğ"a çevrilməsidir!
- Azərbaycanın iqtisadi gücü, tükənməz imkanlarıdır!
- Ən nəhayət, Heydər Əliyev siyasi kursuna sədaqətimiz, bu yolla daim qələbələrə doğru irəliləməyimizdir!

Çox keçmədən bütün dünya "Qafqazın Xirosiması"nın yerində cənnət Qarabağın müasir, əvvəlkindən də gözəl Ağdamını görəcəkdir!

**Bəxtiyar SADIQOV**








# Azərbaycanın və İranın XİN başçıları cari regional vəziyyəti müzakirə ediblər



Noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli və regional gündəlikdə duran, həlli zəruri olan məsələləri, eləcə də cari regional vəziyyəti müzakirə ediblər.

Bölgədə regional formatlar çərçivəsində aparılan işin vacibliyi, bu istiqamətdə səylərin artırılmasının əhəmiyyəti qeyd edilib, bu prosesin regionda sülh və sabitliyə töhfə verəcəyi vurğulanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan XİN Ermənistanı regionun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün yaranmış tarixi imkanlardan istifadə etməyə çağırıb

Xarici İşlər Nazirliyinin Mətbuat katibi Ayxan Hacızadə noyabrın 18-də Ermənistanın baş naziri Nikol Paşinyan ATƏT Parlament Assambleyasının Ermənistanda keçirilən payız sessiyası zamanı çıxışında Azərbaycanın Ermənistanla münasibətlərin normallaşması üçün Avropa İttifaqının vasitəçiliyi ilə təklif olunan üç prinsip barədə ölkəmizin mövqe bildirmədiyi, əsirləri geri qaytarmadığı və Ermənistana qarşı müharibəyə hazırlaşdığı ilə bağlı səsləndirdiyi fikirləri şərh edib.

AZƏRTAC xəbər verir ki, Ayxan Hacızadə bununla bağlı deyib: "Göründüyü kimi, Ermənistan rəsmilərinin Azərbaycanla sülh prosesində əməli addımlar əvəzinə, əsassız və ziddiyyətli bəyanatlara üstünlük verməsi ənənəvi hal alıb.

Bu dəfə də Ermənistan baş naziri öz ziddiyyətli fikirləri ilə yadda qalıb. Ermənistan tərəfinin iki aydan artıq müddətdə yubatdığı "sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsinə şərhləri təqdim etmək və müqavilə üzrə danışıqlara başlamaq əvəzinə Azərbaycana qarşı iddialar səsləndirməsi qəbuledilməzdir.

Ermənistan baş nazirinin baza prinsiplər və sərhədlərin demarkasiyası üzrə iki ölkə arasında anlaşma olduğunu, Ermənistan və Azərbaycanın ərazi iddialarının olmadığını bildirməklə yanaşı, ölkəmizin Ermənistana qarşı müharibəyə hazırlaşdığını bəyan etməsi Ermənistan rəsmilərinin bəyanatlarında nə dərəcədə ziddiyyətli yanaşma tətbiq etdiklərinin göstəricisidir.

Son üç il ərzində Azərbaycan tərəfindən 5 baza prinsipinin, sərhədlərin demarkasiyası, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması istiqamətində irəli sürülmüş təşəbbüslərə baxmayaraq, Ermənistan tərəfi bu prosesə maneə törədib.

Azərbaycan tərəfindən indiyə qədər 100-ə yaxın erməni əsirin geri qaytarılmasına baxmayaraq, Ermənistan tərəfinin bunun müqabilində sərhədi səhvən keçərək əsir götürülmüş şəxslərin geri qaytarılması barədə etimad quruculuğu səylərini pozması, Azərbaycanın iki hərbçisini əsir götürməsi, Ermənistan tərəfinin saxlanılan şəxslərin geri qaytarılması məsələsinə ciddi yanaşmadığını göstərir.

Ermənistanın baş nazirinin Qərbi Azərbaycan İcmasının nümayəndələrinin öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması istəyinin və bu istiqamətdə apardıqları təbliğatın Ermənistana qarşı "təcavüzə hazırlıq" kimi qələmə verilməsi tamamilə əsassızdır.

Müxtəlif beynəlxalq platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə və Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün yaranmış tarixi imkanlardan istifadə etməyə çağırırıq.

Ümidvarıq ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, yaxın zamanda sülh müqaviləsinin imzalanması istiqamətində Azərbaycan tərəfindən edilən çağırışlara Ermənistan tərəfindən adekvat cavab veriləcək".

# *İcma:* "Paşinyan hökumətindən azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdış hüququnu tanımasını gözləyirik"

Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın ATƏT Parlament Assambleyasının İrəvanda keçirilən iclasındakı çıxışında Azərbaycana qarşı növbəti dəfə böhtan atmasını və Qərbi Azərbaycan İcmasının fəaliyyətini təhrif etməsini şərh edib.

AZƏRTAC xəbər verir ki, icmanın bununla bağlı açıqlamasında deyilir: "Azərbaycan Ermənistanı Qərbi Azərbaycan adlandırmaqla Ermənistana hərbi təcavüzə hazırlaşır", - deyən N.Paşinyana xatırladırıq, bu, həmin Ermənistan və N.Paşinyan hökumətidir ki, Azərbaycan ərazilərini 30 il işğal altında saxlamış, bununla qürrələnmiş, 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" deyə aləmə car çəkmiş, amma sonradan "Ermənistan heç vaxt Azərbaycana qarşı ərazi iddiası etməmişdir" açıqlaması vermişdir.

Qərbi Azərbaycan ifadəsinə gəlincə qeyd edək ki, bu, tarixi və coğrafi həqiqətə əsaslanan bir termindir və icmamızın ondan istifadə etməsi beynəlxalq insan hüquqları konvensiyaları ilə tanınan özünü-identifikasiya hüququna əsaslanır.

Bu ifadəyə etiraz edən N.Paşinyan qoy izah etsin, necə olur ki, onun məntiqi ilə "Artsax", "Dağlıq Qarabağ" demək Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təhdid etmək sayılmır, amma Qərbi Azərbaycan ifadəsini işlətmək Ermənistanın suverenliyinə qəsd anlamına gəlir!

Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan İcmasının Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur və sülhə, barışığa N.Paşinyanın gəlişigözəl sözləri ilə, yalandan özünə "demokrat" imici yaratmaqla deyil, səmimi addımlarla nail olmaq olar. Bu xüsusda, N.Paşinyan hökumətindən azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdış hüququnu tanımasını və qərbi azərbaycanlılarla tarixi barışığın əldə edilməsi üçün icma ilə dialoqa başlamasını gözləyirik.

# "Erməni lobbisinin təsiri altındakı konqresmenlər anlamalıdırlar ki, ikili standartlar onların dövlətinin imicinə zərbədir"

"Bu gün bütün dünya Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsindəki qələbəsindən, eləcə də 2023-cü ilin sentyabrındakı lokal xarakterli birgünlük antiterror tədbirlərinin nəticələrindən, əhəmiyyətindən danışır. Çoxları Azərbaycanın bu qələbəsini təqdir edir. Lakin çox təəssüf ki, ABŞ konqresi hələ də 907-ci düzəlişin təsirindən qurtula bilmir. ABŞ-dəki erməni lobbisinin təsiri altında olan konqresmenlər anlaya bilmirlər ki, bu cür ikili standartlar məhz onların öz dövlətinin imicinə zərbədir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində tarixçi-alim, Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov söyləyib.

Siyasətçi xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bölgədə tarixi ədalət bərpa olunub. BMT və digər beynəlxalq təşkilatların qəbul etdikləri, 30 ilə yaxın müddətdə kağız üzərində qalan qərar və qətnamələr 44 gün ərzində yerinə yetirildi. Azərbaycan Ordusunun daha da güclənməsindən, Azərbaycan dövlətinin başçısının nüfuzunun günbəgün artmasından narahat olan qüvvələr bunu həzm edə bilmirlər.

Qeyd edilib ki, ABŞ və Avropa İttifaqının Azərbaycana qarşı bu ikiüzlü siyasəti bütün regionun əleyhinədir. Onlar regionda "zəif bənd"dən istifadə edərək regionda sabitliyi yenidən pozmağa, sülh müqaviləsinin imzalanmasına maneə olmağa çalışırlar.

"Düşünürəm ki, Cənubi Qafqaz ölkələrinin liderləri bunu anlamalı və tez bir zamanda sülh müqaviləsi imzalanmalıdır. Sülh müqaviləsinin imzalanması regiona sabitlik, inkişaf gətirəcək. Regionda sabitlik bütün xalqların, o cümlədən elə Avropanın özünün xeyrinədir. Ona görə də bütün dövlətlər, eləcə də Ermənistan və onun havadarları Azərbaycanın sülh çağırışına qoşulmalı, ümumi inkişafa töhfə verməlidirlər", - deyə R.Bəkirov vurğulayıb.

# "Bir kəmər, bir yol" layihəsi Azərbaycanın maraqlarına tam uyğundur

"Bir kəmər, bir yol" nə deməkdir? Bu, hər şeydən əvvəl birgə istehsal, müvafiq məhsulun birgə işlənib hazırlanması və birlikdə istifadəsidir. Layihə həmin yolun ətrafında yerləşən bütün ölkələrin inteqrasiyasını nəzərdə tutur.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov "Silunews" qırğız internet nəşrinə müsahibəsində bildirib.

Diplomatın sözlərinə görə, hələ 1998-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixi böyük İpək yolunun bərpası təşəbbüsü ilə çıxış edib. Səfir əlavə edib: "Heydər Əliyevin səyləri sayəsində Azərbaycanda 42 ölkənin nümayəndələrinin, o cümlədən səkkiz dövlət başçısının iştirakı ilə böyük İpək yolunun bərpası və inkişafı üzrə beynəlxalq forum keçirilib. Beləliklə, biz Şərq və Qərbi birləşdirməyə tam imkan verən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisindən başladıq".

Səfir Azərbaycanın bu layihəyə dəstək verməsinin səbəbini də izah edib: "Bu yolun bir hissəsi bizim ölkəmizdən keçir. Hətta bir hissəsinin deyil, tamamının da keçdiyini söyləmək olar. Ola bilər ki, gələcəkdə Azərbaycanın bir neçə ildir haqqında danışdığı Zəngəzur dəhlizindən keçən ikinci istiqaməti də həyata keçirmək imkanı yaransın".

Azərbaycanın diplomatik nümayəndəliyinin rəhbəri qeyd edib ki, Zəngəzur dəhlizinin açılması Xəzər dənizi vasitəsilə Qazaxıstan və Azərbaycanı birləşdirən Orta dəhlizin qurudan keçməsini və onların arasında məsafənin xeyli azalmasını təmin edəcək. Beləliklə, Azərbaycan Avropa, Afrika və Yaxın Şərq istiqamətlərində daha bir yola malik olacaq".

# Müdafiə naziri Hava Hücumundan Müdafiə Bölmələrinin döyüş hazırlığını yoxlayıb





Noyabrın 18-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti döyüş hazırlığının qəfil yoxlanılması məqsədilə Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə (HHM) bölmələrindən birində olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov komandirlərin qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki bacarıqlarını, eləcə də bölmələrin döyüş hazırlığını yoxlayıb.

Sonra müdafiə naziri və nazirliyin digər rəhbər heyəti Hava Hücumundan Müdafiə bölmələrinin praktiki döyüş atışlarını izləmək üçün təlim poliqonuna gəlib.

General-polkovnik Z.Həsənov komanda-idarəetmə məntəqəsində HHM bölmələrinin döyüş hazırlığı və döyüşə hazırolma vəziyyəti barədə məruzələri dinləyib. Komanda-qərargah maşınında Hava Hücumundan Müdafiə bölmələrinin döyüş fəaliyyətlərinin planlaşdırılması və idarəedilməsi üzrə tapşırıqlar icra olunduqdan sonra praktiki atışlar yerinə yetirilib.

Şərti düşmənin aşkar olunan hava hədəfləri məhv edilərək qarşıya qoyulmuş tapşırıqlar müvəffəqiyyətlə icra edilib.

Müdafiə naziri Hava Hücumundan Müdafiə bölmələrinin döyüş hazırlığını yüksək qiymətləndirib.

# *Ombudsman:* "Ədalət Məhkəməsinin qərarı Ermənistanın iddialarını bir daha təkzib etdi"

"İrqi ayrı-seçkiliyin bütün formalarının qarşısının alınması haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən qəbul edilmiş müvəqqəti tədbirlər barədə qərar Ermənistanın Azərbaycana qarşı əsassız iddialarını hüquqi müstəvidə bir daha təkzib etmiş oldu".



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 17 noyabr tarixli qərarına münasibətində yer alıb.

Ombudsman deyib ki, ölkəmizə qarşı müxtəlif platformalarda irəli sürülən ittiham-yönümlü fikirlərin əksəriyyəti Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən rədd edilməklə yanaşı, bu fikirlərin hər hansı faktoloji əsasının olmaması bir daha təsdiq olundu.

Tolerantlığın Azərbaycanda möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri vardır. Ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların hüquq və azadlığının təmininə, mədəni müxtəlifliyinə, birgəyaşayış qaydalarına, onların inkişafı və harmonizasiyasına dövlət səviyyəsində diqqət göstərilir. Azərbaycan dövləti tərəfindən davamlı olaraq Qarabağın ermənəsilli sakinlərinin hüquqlarının təmini ilə əlaqədar beynəlxalq hüquqi öhdəliklərinə sadiqliyini bəyan edən çağırışlar edilir, həmin şəxslərin təhlükəsizliyinə və humanitar ehtiyaclarının qarşılanmasına təminat veriləcəyi yüksək səviyyədə bildirilir, erməniəsilli sakinlərin reinteqrasiyası istiqamətində əməli addımlar atılır.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili olaraq, milliyyətindən, dinindən, irqindən, etnik və digər mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə yaşayan hər bir kəsin hüquq və azadlıqlarının təmini sahəsində fəaliyyətimizi həyata keçiririk.

Qarabağda yaşayan erməniəsilli vətəndaşlarımızın milli qanunvericilikdə və beynəlxalq sənədlərdə təsbit edilmiş hüquq və azadlıqlarının təmini və müdafiəsi məsələsi də daim ombudsmanın diqqət mərkəzindədir", - deyə Səbinə Əliyeva vurğulayıb.

# Berlin şəhərində Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu başlayıb

"Heydər Əliyev İli" çərçivəsində Berlin şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu öz işinə başlayıb.



AZƏRTAC xəbər verir ki, forumun açılış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın Almaniyadakı səfirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin əməkdaşları, Almaniyanın 70-ə yaxın şəhərindən gələn tibb mütəxəssisləri və qonaqlar iştirak ediblər.

Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsinin Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə bağlı hazırladığı "Heydər Əliyev və Azərbaycan diasporu" sənədli filmi və şanlı zəfərimizi əks etdirən "Xalqa verilən söz həqiqətə çevrildi" videoçarxı nümayiş olunub.

Daha sonra tədbirin moderatoru Nuran Abdullayev Almaniya Azərbaycanlıları Alyansının və Almaniyadakı azərbaycanlı həkimlərin fəaliyyəti barədə videoçarxı təqdim edib.

Forumda çıxış edən Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Nəsimi Ağayev bildirib ki, Almaniyada yaşayan azərbaycanlıların birliyini müşahidə edirlər. "Bizim hər birimizin vəzifəsi Azərbaycanla bağlı həqiqətlərin dürüst şəkildə yerli ictimaiyyətə çatdırılmasıdır. Almaniyadakı Azərbaycan diasporu xüsusi fəallığı ilə seçilir və mühüm işlər görür. Bundan sonra da bu fəaliyyətlərin birgə, sıx və əlaqələndirilmiş şəkildə davam etdirilməsi və gücləndirilməsi zəruridir", - deyə diplomat vurğulayıb.

Tədbir dünya azərbaycanlılarının və Azərbaycan diaspor təşkilatlarının müxtəlif ölkələrdə fəaliyyətinə dair məlumat xarakterli videoçarxın nümayişi ilə davam edib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bu əlamətdar hadisə münasibətilə soydaşlarımızı təbrik edib və forumun işinə uğurlar arzulayıb. O, bu il Vətənimizdə və xarici ölkələrdə 100 illik yubileyi qeyd olunan görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycanlıların xaricdə təhsil almasına xüsusi diqqət yetirdiyini xatırladıb. Hazırda xaricdə fəaliyyət göstərən Azərbaycan icmalarının Prezident İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqətində olduğunu vurğulayan komitə sədri forumun işini və Almaniyadakı Azərbaycan icmasının fəaliyyətini yüksək qiymətləndirib. Azərbaycan icmasının yerli cəmiyyətə, ictimai-siyasi dairələrə təsir imkanının artırılması istiqamətində gücə və potensiala malik olduğunu diqqətə çatdırıb.

"Ümid edirəm ki, bu forum xaricdə çalışan azərbaycanlı həkimlərlə ölkəmizin bu sahədə fəaliyyət göstərən qurumları arasında daha sıx əlaqələrin qurulmasına və xaricdə yaşayan azərbaycanlı həkimlərin milli səhiyyə sisteminin inkişafında görülən işlərə töhfə verməsinə kömək edəcək. İnanıram ki, hər biriniz milli-mənəvi və dövlətçilik dəyərlərimizi də layiqincə təmsil etmək üçün əməyinizi əsirgəməyəcəksiniz", - deyə komitə sədri söyləyib.

Sonra Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin forum iştirakçılarına müraciəti təqdim edilib. Forumun işinə uğurlar arzulayan nazir ölkəmizdə həyata keçirilən sosial islahatlar barədə geniş məlumat verib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova çıxışında bildirib ki, Azərbaycanın dövlət büdcəsindən səhiyyəyə ayrılan xərclər getdikcə artır və bu, ölkə vətəndaşlarının sağlamlığının daha yüksək səviyyədə qorunmasına ciddi təsir göstərir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov bildirib ki, xaricdə təhsil alan və çalışan azərbaycanlı həkimlərin bir qrupu artıq Azərbaycanda TƏBİB-in tabeliyində olan tibb müəssisələrində fəaliyyət göstərir. O, Almaniyada çalışan azərbaycanlı həkimlərin bir qrupunun da bu niyyətdə olduğunu qeyd edib. Azərbaycanda səhiyyənin yeni dövrün tələblərinə uyğun inkişaf etdirildiyi, Qarabağa köçən Azərbaycan vətəndaşlarına səhiyyə xidmətinin göstərildiyi vurğulanıb.

Alman-Azərbaycan Cəmiyyəti İdarə Heyətinin sədri, professor Çingiz Abdullayev çıxışında Almaniyadakı Azərbaycan icmasının uzun illik fəaliyyəti barədə məlumat verib.

Xatırladaq ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Almaniyada Azərbaycanlı Həkimlərin I Forumu 2022-ci il mayın 5-də Köln şəhərində təşkil edilib.



## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR dirçəliş yolundadır



◆ Azadlığın təntənə günü

# Ağdamın Zəfər bayramı



Şanlı Zəfərin təqvimlərimizdə al qırmızı rəngə boyadığı daha bir qürurlu tarixi, qədim Qarabağın xanzadə yurdu Ağdamın azadlıq gününü fəxrlə qeyd edirik...

Ürəyimizdə Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun rəhbərlik etdiyi yenilməz Azərbaycan Ordusuna böyük minnətdarlıq, ana torpağımız uğrunda şəhid olan vətən övladlarının ruhuna dərin ehtiram hissi ilə...

2020-ci il noyabrın 20-də cənab Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən siyasət, həyata keçirdiyi mükəmməl hərbi taktika sayəsində Ağdam bir güllə atılmadan, bir itki verilmədən azad edildi, 27 illik həsrətin, intizarın sonunda bu tarixi türk diyarında yenidən Azərbaycan bayrağı dalğalandırıldı.

Biz ağdamlılar doğma yurdumuzdan olan çəkiliş kadrlarından bir zamanlar öz əllərimizlə tikib-qurduğumuz ev-eşiklərimizin vəhşi düşmən tərəfindən dağıdılmasını, əzizlərimizin məzarlıqlarının belə yerlə yeksan olmasını böyük sarsıntı, ürəkağrısı ilə seyr etmiş, doğulub boya-başa çatdığımız, amma doyunca yaşaya bilmədiyimiz torpağımızın viran halına uşaq kimi ağlamışdıq.

Lakin qalib lider İlham Əliyevin Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 2020-ci il noyabrın 23-də, azadlığından cəmi üç gün sonra Ağdama yollanması, rayonun mənəvi rəmzi Ağdam Cümə məscidini ziyarət edərək məscidin önündən ağdamlılara, Azərbaycan xalqına Ağdam şəhərinin, bütün kəndlərin bərpa ediləcəyinə dair əzm və qətiyyətlə söz verməsi ürəyimizi dağa döndərdi, ağ damlı şəhərimizin ruhunun tezliklə özünə qaytarılacağının xoşbəxtliyini yaşadıq.

Budur, artıq qurucu lider İlham Əliyev Qarabağın barlı-bərəkətli yurdu Ağdamı müasir inkişaf və quruculuq məkanına çevirib.

Ağdamda doğulub, boya-başa çatan biri kimi buranın abad günlərinin də, ən ağrılı-acılı zamanlarının da şahidiyəm. Qarabağda 1988-ci il hadisələri başlayanda milis məktəbində işləyirdim və o zaman kursantlarımızı Ağdərəyə, Gədəbəyə, Xankəndiyə və digər ərazilərə aparırdıq. Düzdür, intensiv döyüş getməsə də, atışmalar olurdu, gərginlik var idi. Əsgərlər vuruşurdular, bizim də öz mövqelərimiz vardı, kursantlar postlar qurmuşdular, onlara nəzarət edirdik. Müharibə ərəfəsində də hər həftə Ağdama gedirdim. Dost-tanışlarla birgə yardım, patron, geyim, yorğan-döşək, çörək, başqa ehtiyac olan şeylər yığıb aparırdıq döyüşçülərimizə, camaata...

Döyüşkən oğullarımız düşmənə qan uddururdu. Həmin vaxt ən çox küçə döyüşləri aparılan rayon da məhz Ağdam olub və Birinci Qarabağ müharibəsində 6 mindən çox şəhid verib.

Lakin həmin zaman xalqımıza, cəsur döyüşçülərimizə dayaq, arxa duran qüdrətli dövlət, həmin dövlətə rəhbərlik edən müdrik liderimiz olmadığı üçün müharibəni uduzduq, müsibətlərə tuş gəldik, rayonlarımız bir-bir işğal olundu, o cümlədən də Ağdam.

Elimiz didərgin düşdü, hərə bir yana dağıldı, ancaq yas düşəndə, toy olanda bir yerə yığışa bildik, gah xoş günlərimizi xatırladıq, gah vətən nisgili boğazımızda düyünləndi.

Çox insanlarımız bir daha doğma yurdu görmədən, vətən qübarı ilə köçdü bu dünyadan, çox körpələrimiz doğuldu Ağdamı yalnız valideynlərinin sözləri ilə tanıyan...

Düz 27 il Ağdama həsrət yaşadıq, amma bir gün də olsun doğulduğumuz torpağa qayıdacağımızın ümidini itirmədik.

Bir gün torpaqlarımızın işğaldan azad olunacağı ümidini Ulu Öndər Heydər Əliyev, doğma yurda qayıdacağımız inamını qətiyyətli lider İlham Əliyev verdi bizə...

Müdrik rəhbərimiz İlham Əliyev hər zaman torpaqlarımızın işğaldan azad edilməsinin, bir milyona yaxın köçkünümüzün yurduna qaytarılmasının özünün ən ümdə vəzifəsi olduğunu bəyan etdi. Ötən müddətdə milli mənafelərimizin təmini istiqamətində atdığı ardıcıl və mükəmməl addımlarla möhtərəm Prezident İlham Əliyev bizi o şanlı günlərə, Böyük Zəfərə, Böyük Qayıdışa yaxınlaşdırdı.

2020-ci il 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə Ağdamı ağ bəxtli diyar, biz ağdamlıları bəxtəvər etdi.

Müharibədən qısa müddət sonra dövlətimiz tərəfindən bütün işğaldan azad edilən ərazilərdə olduğu kimi, Ağdamda da sürətli tikinti və bərpa işləri aparılmasının nəticəsidir ki, indi rayonumuz quruculuq, abadlıq ünvanına çevrilib.

Bir zamanlar görənlərin dəhşət, qorxu ilə "ruhlar şəhəri", "Qafqazın Xirosiması" adlandırdığı viranə şəhərdən əsər-əlamət qalmayıb, Ağdam gündən-günə dirçəlməyə, yaşamağa başlayıb.

Xoşbəxt insanam ki, cənab Prezident İlham Əliyev öz əlləri ilə qədim Ağdamın yeni təməl daşını qoyanda mən də orada idim.

2021-ci il - Müstəqillik Günündə Ağdamın bərpasının başlanğıcını qoyan dövlət rəhbərimiz ən müasir Ağdamın qurulacağının və buranın tezliklə modern şəhərə çevriləcəyinin xoş xəbərini verdi.

Həmin tarixi gündə demək olar ki, Ağdamın Baş Planında yer alan bütün layihələri bir-bir bizimlə müzakirə edən, fikirlərimizi dinləyən möhtərəm Prezident layihənin icraçılarına tapşırıq verdi ki, Ağdam üçün elə ağaclar, güllər seçsinlər ki, burada bitsin. Onda mən də söylədim ki, cənab Prezident, Ağdamda nə əksən bitər, subtropik bitkilərin hamısı Ağdamda bitir. Ağdamın torpağı çox münbitdir.

Yeni Ağdam 100 min əhalisi olan möhtəşəm bir şəhər kimi salınır. Parklar, meşələr salınacaq, kanal çəkiləcək. Evlərin hər biri gözəl layihələr əsasında tikiləcək. Köhnə abidələrin hamısı bərpa olunacaq: Fərhadın heykəli, Cümə məscidi, Çörək muzeyi və digərləri. Ağdamın işğal və qələbə tarixi iki muzeydə yaşadılacaq, "İşğal" və "Zəfər" muzeyləri yaradılacaq.

Ağdamda vaxtilə təhsil aldığım və erməni vandalları tərəfindən dağıdılmış qədim 1 saylı orta məktəbin də yenidən təməli qoyuldu. Artıq bu qədim məktəbin tikintisi yekunlaşmaq üzrədir.

Ağdamın Baş Planında Qarabağ Universitetinin yaradılmasının nəzərdə tutulması isə ümumilikdə Azərbaycan elm camiəsi üçün böyük töhfə, həm də Ağdamın elm-təhsil mərkəzi olacağının bariz göstəricisidir.

Onu da vurğulayım ki, Azərbaycan Milli Elmlər Akademiyasının Qarabağ Regional Elmi Mərkəzinin yaradılması planlaşdırılır ki, bu addımın özü də burada elm sahəsinin inkişafına böyük təkan verəcək.

2021-ci il mayın 28-dəki görüş zamanı cənab Prezident söylədi ki, biz elə bir şəhər yaradacağıq, elə bir Ağdam quracağıq ki, bu, bütün dünya üçün örnək olacaqdır.

Artıq həmin tarixi görüşdən ilyarım ötüb və bu dövrdə Ağdamın siması xeyli dəyişib, dövlət başçımızın yeni Ağdamla bağlı planlaşdırdığı layihələr bir-bir həyata keçirilməyə başlanıb.

Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bütün quruculuq bərpa işlərinə şəxsən nəzarət edən dövlət başçımız mütəmadi olaraq Ağdam rayonuna da səfərlər edir və görülən işlərlə yaxından tanış olur, yeni açılışlar edir, bünövrələr qoyur.

Ötən il fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər edərək "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak ediblər. Prezident İlham Əliyev Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpaolunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və xalça istehsalı müəssisələrinin, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin, 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoyub.

2022-ci il oktyabrın 4-də Ağdamda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, rayonun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel Agdam" mehmanxanasının, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak ediblər, yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan, həmçinin Pənahəlixanın sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olublar.

Elə 2023-cü il də Ağdam üçün böyük quruculuq ili oldu. Mayın 2-də Mehriban xanım Əliyeva ilə birlikdə yenidən yolunu Ağdamdan salan Prezident İlham Əliyev ənənəsinə sadiq qalaraq yeni mühüm layihələrin təməllərini qoydu. Səfər zamanı Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olan dövlət başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin bünövrəsini qoydu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində tikiləcək inzibati binanın, eləcə də şəhərdə salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin təməllərinin qoyulması mərasimində iştirak etdilər. Mayın 2-də rayonda Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması isə daha bir möhtəşəm hadisə oldu.

Xüsusi vurğulayım ki, işğaldan azad edilən bütün yurdlarda tarixi, dini, mədəni irsimiz, o cümlədən də Ağdamın mənəvi simvolu sayılan Ağdam Cümə məscidi Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa olunur.

Ağdam gündən-günə çiçəklənir, gülüstana çevrilir. Dövlətimiz tərəfindən Qarabağın qədim diyarında görülən bütün bu möhtəşəm işlər tezliklə doğma yurdumuz Ağdama doğru da qayıdış karvanlarının yol alacağının xoş sorağını verir.

Bizə yaşatdığı bu xoşbəxtliyə görə Ulu Öndər siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyevə ömürboyu minnətdar olacağıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci ildə qazandığı parlaq Zəfər bizə yeni-yeni qələbələr ərmağan edib.

Çox fəxrliyik ki, bu il 20 Noyabr - Ağdam Şəhəri Gününün sevincini həm də Azərbaycanın suverenliyinin bərpası, Xankəndidə bayrağımızın əbədi dalğalandırılmasının misilsiz qüruru ilə qeyd edirik.

***Habil QURBANOV,***
***AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor***

*Əvvəli 1-ci səh.*

# Zaman dəyişib, xəyallar reallığa çevrilir

2021-ci ilin mart ayı idi. Dörd yol adlanan yerdən həmişəki kimi, Quzanlı qəsəbəsinə deyil, üzü Təzəkənd kəndinə tərəf gedirik. Əvvəlki illərdə ön səngərlərimiz bu kəndin yuxarısında yerləşirdi. Həmin vaxtlar dərin qazılmış səngərlərdən o yana getmək mümkün deyildi. Çünki erməni qəsbkarları 1993-cü ilin isti yay günlərində o yerləri zəbt etmişdilər. Ona görə də doğma ocaqlarımıza əsgərlərimizin dayandıqları səngərlərdən boylanırdıq. Hətta səngərdən irəli göz qoymaq da təhlükəli idi. Çünki pusquda dayanan düşmən snayperi hər an səni vura bilərdi. Amma indi heç bir təhlükə hiss etmədən üzü Ağdama gedirik. Gedirik ki, işğaldan azad olunmuş ərazilərimizi görək, ayağımız doğma torpaqlarımıza dəysin...

Yolboyu gördüyümüz quruculuq işlərindən ürəyimiz açılır. Texnikalar dayanmadan hərəkət edir, üzü Ağdama gedən yollar genişləndirilirdi. Hərəkətlərindən hiss olunurdu ki, xüsusi geyimdə olan fəhlələr həvəslə, yorulmaq bilmədən işləyirlər.

İllər əvvəl bu yerlərdən gecə-gündüz qatarlar ötüb keçmişdi. İşğaldan sonra isə yollar bağlanmış, hərəkət dayanmış, relslər pas atmışdı. Qatarların o gözəl, ritmik səsi illərin arxasında eşidilməz olmuşdu. Çox sevindiricidir ki, artıq bərpa işləri xeyli sürətlənib.

Əvvəllər səngərlərimizin yerləşdiyi, zabit və əsgərlərimizin illərlə dayandıqları əraziyə çatırıq. Bir anlıq burada ayaq saxlayıb ətrafa boylana-boylana arxada qalmış o illəri, günləri xatırlayırıq. Xatırlayırıq ki, o çağlar buradan qabağa nə addım ata, nə də baxa bilirdik. İndi isə heç nədən qorxub çəkinmədən irəli - Ağdama gedirik. Səngərlər olduğu kimi yerində qalıb. Amma zabitlər, əsgərlər gözə dəymir. Sanki bu yerlərdə vaxt ayaq saxlayıb, zaman dayanıb. Elə bil boş qalmış bir əraziyə deyil, illərcə əvvəl çəkilmiş ağ-qara şəkillərə baxırıq. Ötənlər kino lenti kimi qırıq-qırıq gözlərimiz önündən gəlib keçir.

Neytral zona adlandırılan sahəni keçəndən sonra haradasa yüz addım qabağa gedib bir vaxtlar erməni qəsbkarlarının qarşımızda çəkdikləri səngərlərə yaxınlaşırıq. Həmin sahəyə çatanda maşından düşüb ayağımızı astaca Ağdam torpağına qoyub bir vaxtlar düşmənin dayanıb mövqelərimizi, yaşayış məntəqələrimizi atəşə tutduğu səngərlərə, müşahidə məntəqələrinə diqqət yetiririk. Burada da eyni mənzərədir. Dərin qazılmış səngərlər, hündürdə quraşdırılmış müşahidə məntəqələri, daldalanmaq üçün xüsusi qazılmış lağımlar, bir-birinin içindən keçən dolaylanmış dar cığırlar və genişliyə doğru uzanan yollar. Erməni işğalçılarının postlarındakı məişət şəraitinə, yataq yerlərinə baxanda, onların necə də miskin vəziyyətdə yaşadıqlarının şahidi oluruq. Ətrafda ürəkaçan heç nə yoxdur...

Burada çox ləngiməyib yolumuza davam edirik. Dəmir yolu xətti boyunca istehkamçıları da iş başında görürük. Onlar xüsusi geyimlərdə həm dəmir yolunun keçəcəyi xətti, həmçinin yaxınlıqdakı əraziləri minalardan təmizləyirdilər. Ermənilər Ağdamı işğal edəndən sonra relsləri də, relslərin altına döşənmiş tirləri də söküb aparıblar.



İşğaldan azad olunmuş yaşayış məntəqələrinə, ərazilərə baxdıqca ürəyimiz ağrıyır. Erməni qəsbkarları evləri uçurub dağıdıb, kəndləri viran qoyublar. Baxımsızlıq üzündən ağacların çoxu quruyub. Bəzi yerlərdə isə ağacların qol-budaqları vurulmadığından bir-birinin içinə girib, sıxlıq yaranıb. Ərazilərdən keçib getmək çətinləşib. İnsan sığal-tumarı görməyən təbiət sanki nizamından çıxaraq vəhşiləşib.

Böyük boşluq ərazidən keçirik. Erməni qəsbkarları əvvəlki illər bu yerlərdən poliqon kimi istifadə edib təlim keçiblər. Ərazidə texnikaların hərəkəti üçün xüsusi keçidlər düzəldilib, atış üçün səngərlər qazılıb. Qəsbkarlar illər uzunu torpaqlarımızdan istədikləri kimi istifadə ediblər. Şükürlər olsun ki, bütün bu ürəkdağlayan əməllərə son qoyuldu. Artıq başqa ərazilərimiz kimi, Ağdam da əsl sahiblərinin ixtiyarındadır. Bundan sonra torpaqlarımızı özümüz əkib-becərəcəyik.

Ağrı-acılarla dolu mənzərələrə baxa-baxa Ağdam rayonunun Qızılı Kəngərli kəndinə gəlib çatırıq. Bu yaşayış məntəqəsində evlər uçurulub-dağıdılmayıb. Ermənilər işğal dövründə burada yaşayıblar. Bu kənddə həyatın varlığı hiss olunur. Yəqin ki, düşmən Qızılı Kəngərlidən çıxarkən kəndi yandırmağa vaxt edə bilməyib. Ona gorə də evlər əsasən salamat qalıb.

Qızılı Kəngərlidən sonra üzü Ağdama tərəf gedirik. Yenə də eyni ürəkdağlayan mənzərələrlə üzləşirik. İşğaldan əvvəl bu yollardan çox keçmişəm. Amma kənd-kəsəklər dağıdıldığından, yerlə yeksan olunduğundan heç yeri, heç nəyi tanımaq mümkün deyil. Erməni qəsbkarları bir neçə yerdə dərələrin ətəklərində böyük nar bağları salıblar. Bu bağlar dörd-beş hektar ərazini əhatə edir.

28 il gözəl Ağdam şəhərimiz düşmənin işğalı altında qalmışdı. Həmin müddət ərzində qəsbkarlar Ağdamı Xirosimanın gününə salmışdılar. Məntiqlə yanaşanda belə çıxır ki, erməni qəsbkarları atom bombasından da təhlükəli və dağıdıcıdırlar. Daşı daş üstə qoymayıblar. 1993-cü ilin yaz günlərində tərk etdiyimiz Ağdamdan heç bir əsər-əlamət qalmamışdı. Şəhər və kəndlər erməni vandalları tərəfindən darmadağın edilmişdi. Bununla belə hiss edirəm ki, "Qafqazın Xirosiması"nın ürəkdağlayan mənzərələrindən sabahlara gur işıq düşür. Bu işıqda yeni tikilmiş kəndlər, yeni salınmış şəhərlər görünür.

İşğaldan azad olunmuş başqa şəhər və kəndlərimiz kimi, Ağdamda da bərpa və quruculuq işləri aparılır, bir sıra vacib layihələr həyata keçirilir. Ümid edirik ki, xalqımızın birliyi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyəti sayəsində ermənilərdən təmizlənmiş ərazilərimizdə quruculuq işləri çox sürətlə gedəcək.

Ürək odlayan mənzərələrə baxa-baxa zabit və əsgərlərimizin dayandıqları yerlərə gəlib çatırıq. Artıq Ağdamda Azərbaycan əsgərinin addım səsləri eşidilir. Bu səsdən torpağın da, daşın da üzü gülür. Sanki birdən-birə 28 il əvvələ qayıtmışıq. Hərbçilərimizlə görüşüb söhbət edirik. Onlar deyirlər ki, İkinci Qarabağ müharibəsində zabit və əsgərlərimiz böyük hünər göstərərək erməni işğalçılarına sarsıdıcı zərbələr vurdular. Bu zərbələr nəticəsində torpaqlarımız erməni qəsbkarlarından azad olundu. Ağdamın bu cür yerlə yeksan edildiyini gördükcə erməni qəsbkarlarına nifrətimiz daha da artır. Hərbçilərimizin uçurulmuş divarlardan birinin üstündə üçrəngli bayrağımızı dalğalandırdıqlarını gördük. Çox qürurverici mənzərə idi. Belə gözəl mənzərəni görəndə bir daha əmin olduq ki, indən sonra üçrəngli bayrağımız Qarabağda əbədi dalğalanacaqdır.

Ətrafdakı Qiyaslı, Xıdırlı, Yeddi Xırman, Şelli və başqa kəndlər də ermənilər tərəfindən darmadağın edilib. Uçurulmuş evlərin ətrafı yaşıllıqla əhatə olunub. Aşağı əyilib torpağa yaşıl xalı kimi döşənmiş otlardan öpürük. Ondan torpağın, Vətənin qoxusunu alırıq.

Bundan sonra Ağdam torpağında ümumilikdə yalnız və yalnız çəmənliklər bitəcək, bu çəmənlikdə güllər açacaq, çiçəklər bitəcək. Belə kövrək anlarımda dodaqlarımdan bu sözlər süzülür: "Ağdam, biz sənin isti qoynuna qayıtmışıq. Səni ermənilərdən azad etmişik. İndən sonra bir daha sənin qoynunda qan tökülməyəcək, torpaqlarında yalnız çiçəklər bitəcək. Bir daha bu yerlərə düşmənlərin ayağı dəyməyəcək".

Bu fikirlərlə başımızı qaldırıb səmaya boylanırıq. Torpaqlarımızın işğaldan azad olunmasından sanki göyün də üzü gülür.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Ağ Evin bu hərəkətləri ancaq göstəriş vermək anlamına gəlir

## ABŞ haylara daha yaxşı havadar olduğunu təsdiqləməyə çalışır

"ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsinin Avropa üzrə alt komitəsində "Dağlıq Qarabağın gələcəyi" adı altında keçirilən dinləmə və ardından senatda Azərbaycana hərbi yardımın dayandırılmasını nəzərdə tutan və "2023-cü il tarixli Ermənistan Müdafiə Aktı" adlı S.3000 qanun layihəsinin bizə praktiki təsiri haylara hədəflənən təbliğat təsirindən dəfələrlə azdır. ABŞ indiyə kimi Azərbaycana onsuz da elə böyük yardım göstərmirdi. Yəni bu addımlarla ABŞ haylara göstərməyə çalışır ki, onların Rusiyadan daha çox havadarıdır".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Deputat bildirib ki, ABŞ-nin bu hərəkətləri ancaq göstərişdir, faktiki olaraq isə Ermənistanın iqtisadiyyatı da, təhlükəsizliyi də Rusiyanın tam nəzarətindədir. Ən azından indiki reallıq belədir və qərbdəkilər də bütün gücləri ilə bu reallığı dəyişməyə hədəflənibləri. Onların anti-Azərbaycan hərəkətləri bunun çox da pərdələnməyən bir elementidir. Bütövlükdə Qərbin bu cəhdləri Ermənistanı Rusiya və İranla qarşıdurma plasdarmına çevirsə də, Azərbaycanın Türkiyə ilə müttəfiqliyinə və beynəlxalq normalara dayanan iradəsinə hər hansı təsir göstərə bilməyəcək.

"Yeri gəlmişkən, dinləmədə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Braynın "Biz Ermənistana dəstək vermək üçün Avropa Birliyi ilə sıx əməkdaşlıq edirik" sözləri isə Azərbaycan əleyhinə davranışların arxasında təkcə Fransanın dayanmadığını bütün çılpaqlığı ilə ortaya qoyur. Avropa Birliyinin get-gedə fransalaşmağa başlaması nə Makron ölkəsinin, nə də onun özünün xidmətidir. Çünki Fransanın belə bir diktə potensialı yoxdur. Bu ölkənin prezidenti isə Nikol Paşinyandan çox da fərqlənmir", - deyə S.Alıyev əlavə edib.

Deputat qeyd edib ki, Ceyms O`Braynın açıqlaması Avropa Birliyinin beynəlxalq normalara və bir çox üzvlərinin maraqlarına qətiyyən uyğun gəlməyən davranışlarının ABŞ-nin diktəsi ilə baş verdiyini təsdiqləyir. Bu, həmən ABŞ-dir ki, konqresi "Azadlığı Müdafiə Aktına" 907-ci əlavəni etməklə regionda baş verənlərə görə işğalçı Ermənistanı deyil, Azərbaycanı günahlandırırdı. Məhz o üzdən bizə dövlət səviyyəsində yardım yasaqlanmışdı və belə bir yaramazlığa 1992-ci ildə Xocalı soyqırımından, Azərbaycan torpaqlarının bir hissəsi işğal edildikdən sonra getmişdi. Hələ bu azmış kimi 1997-ci ildə "Porter əlavəsi" deyilən başqa mənfur bir sənəd də meydana çıxmışdı ki, Azərbaycanın sərt reaksiyasından sonra onun qəbulunun qarşısı alınmışdı.

Deputat vurğulayıb ki, ən zəif vaxtlarında belə qərbdəkilərin bu cür ədalətsizlikləri, təzyiqləri Azərbaycanı öz yolundan döndərə bilməyibsə, indi döndərəcəyinə ancaq "böyük Ermənistan" xülyasıyla yaşayanlar inanarlar. "Əminəm ki, qərbdəkilər Azərbaycana etdikləri təzyiqin bizim cəmiyyətdə onlar haqqında yaranmış neqativ hissləri daha da gücləndirməkdən başqa heç bir nəticə verməyəcəyinin yaxşı fərqindədirlər", - deyə o əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Onlara sülh deyil, savaş lazımdır

## "Demokratiya carçıları" insanların, dövlətlərin hüquq və azadlıqlarını tapdalamağa öyrəşiblər

Qərbin bəzi siyasi dairələri, eləcə də Fransa özünü "demokratiya carçısı" kimi təqdim etsələr də, bunun əksini sübut edən addımlar atırlar. Qərb demokratiya və insan hüquqlarından sui-istifadə edərək digər ölkələrdə çevrilişlər etməyə cəhdlər göstərir, çirkin planlarını reallaşdırmaq üçün əllərindən gələni əsirgəmirlər. Bu ölkələrin pis niyyətlərini gerçəkləşdirmək üçün seçdikləri ünvanlardan biri də Azərbaycandır. Xüsusilə Vətən müharibəsində və sentyabrın 19-20-də həyata keçirilmiş antiterror tədbirləri nəticəsində əldə etdiyimiz zəfərləri həzm edə bilməyən xarici qüvvələr regionda mövcud olan gərgin vəziyyətin daha dərinləşməsinə çalışırlar.



Bununla bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Elman Məmmədov deyib ki, Qərb siyasi dairələrinin, xüsusilə də Fransanın ölkəmizə qarşı olan haqsız və ədalətsiz mövqeyi, təbii ki, regionda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına, bu iki dövlət arasında sülh yaranmasına xidmət etmir. Əksinə, bu ölkələrin məkrli addımları gərginliyi artırır, sülhü təhdid edir.

Elman Məmmədov hesab edir ki, ümumiyyətlə diskriminasiya, rasizm və islamofob meyillərin gündən-günə dərinləşdiyi bu ölkələrdən sülhü dəstəkləyən addımlar görmək mümkün deyil. Bu ölkələr insanların hüquq və azadlıqlarını tapdalamağa öyrəşiblər.

"Ermənistanın Fransa tərəfindən yenidən silahlandırılması onu deməyə əsas verir ki, Paris regionda yeni münaqişə ocağının yaranmasında maraqlıdır. Faktiki olaraq, Fransanın və digər ölkələrin keçmiş kəşfiyyatçıları Avropa missiyası adı altında İrəvana gəlib və orada Ermənistan ordusunu yenidən döyüşlərə hazırlayırlar. Yəni cırtdan Ermənistanı təkcə silahlandırmaqla kifayətlənmirlər, onun silahlı qüvvələrinə döyüş bacarığını artırmaq üçün təlimlər keçirlər. Sual yaranır ki, Ermənistan kimi işğalçı dövlət nə üçün hərbi hazırlıq keçir və silahlanır? Əlbəttə, bu, məqsədli şəkildə həyata keçirilir. Bədnam qonşumuz, təbii ki, müdafiə məqsədli deyil, qonşu dövlətlərin ərazilərini işğal etmək üçün döyüş hazırlığını artırır", - deyə deputat bildirib.

E.Məmmədovun dediyinə görə, Fransanın keçmişi müstəmləkəçilik və işğal faktları ilə doludur: "Bu gün belə addımlar atması bir daha sübut edir ki, hələ də bu çirkin siyasətindən əl çəkməyib. İndinin özündə də bəzi ölkələri müstəmləkə kimi istismar edir. Regionumuza gəlincə isə, antiterror tədbirləri nəticəsində bölgədəki silahlı birləşmələri tərk-silah etdikdən sonra sülh gündəliyi ortada olduğu halda, Fransa yenidən Ermənistana silah-sursat göndərib, onu müharibəyə hazırlayır. Bu, sülh prosesinə vurulan böyük zərbədir".

Deputat qeyd edib ki, ümumiyyətlə, ABŞ-nin və Fransanın əli, izi olan yerdə ədalətsizlik və haqsızlıq baş alıb gedir. Fransız və amerikan əsgəri hara ayaq basarsa, ora qan gölünə çevrilir. Cənubi Qafqazda da bu siyasətlərini reallaşdırmaq üçün cəhdlər etsələr də, buna nail ola bilmirlər. Unutmaq olmaz ki, regionumuzda Azərbaycan kimi güclü və yenilməz ölkə var, bu bölgədə günbəgün nüfuzu artan qüdrətli dövlət söz sahibidir. Ona görə də bir sıra Qərb ölkələrinin Ermənistan vasitəsilə Cənubi Qafqaza gəlmək planları baş tutmur.

"Onu da qeyd etmək lazımdır ki, Fransa özünü Ermənistan sevdalısı kimi aparsa da, onların bizim əleyhimizə davranışlarının kökündə heç də erməni sevgisi dayanmır. Paris, sadəcə olaraq, öz strateji maraqlarını həyata keçirmək üçün ermənilərdən alət kimi istifadə edir. Ona görə də Ermənistan başa düşməlidir ki, bu hamilik və havadarlıqlar, hər biri yalan və saxtadır. Yeganə yol Azərbaycanla sülh müqaviləsi imzalayaraq regionda təhlükəsiz yaşamı təmin etməkdir", - deyə Elman Məmmədov yekunda deyib.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Regiondakı gərginliyin ən böyük səbəbkarı Ağ Evdir

## ABŞ bu gün Qəzzada baş verənlərin və Rusiya-Ukrayna qarşıdurmasının gərginləşməsinin əsas müəllifidir

"ABŞ xüsusilə son vaxtlar Azərbaycana qarşı qərəzli mövqedən və ikili standartlardan çıxış edir. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də ABŞ-nin ənənəvi riyakarlığının davamıdır. Əslində isə, otuzillik işğal müddətində bir dəfə də olsun Ermənistanı qınamayan, BMT TŞ-nin məlum 4 qətnaməsinin icrası istiqamətində hansısa addım atmayan, eləcə də 1992-ci ildə ölkəmizə qarşı "907-ci düzəliş"i qəbul edən ABŞ-nin indi belə münasibət sərgiləməsi təəccüblü deyil".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vahid Əhmədov deyib. Deputat bildirib ki, heç bir ölkə Azərbaycanla təzyiq və təhdid dili ilə danışmağa cəhd göstərməməlidir: "Bu gün Azərbaycan 30 il əvvəlkindən fərqli olaraq yenilməz gücə və qüdrətə sahibdir. Prezident İlham Əliyevin siyasəti xalqımızın xeyrinə, Azərbaycanın müstəqilliyinin daimi və əbədi olmasına yönəlib. Görünür, bu, bəzi dövlətlərin, o cümlədən də ABŞ-nin xoşuna gəlmir. Ona görə də özünü demokratik hesab edən belə ölkələr daxili işlərimizə müdaxilə etməyə çalışır, şərböhtan kampaniyaları aparırlar. Lakin əleyhimizə yönəlmiş bütün addımlar adekvat cavablandırılır".

Deputat qeyd edib ki, ABŞ-nin belə riyakar münasibət sərgiləməsinin səbəblərindən biri də erməni lobbisinin orada ciddi iş aparmasıdır. Onlar Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ilə heç cür barışa bilmirlər. Fransanın bu gün Ermənistanı silahlandırmasının da başlıca səbəblərindən biri budur.

"ABŞ regionda gedən Rusiya-Ukrayna müharibəsi fonunda yaranmış gərgin vəziyyətdən istifadə edərək Rusiyanı regiondan sıxışdırmaq istəyir. Azərbaycan vasitəsilə bu məkrli niyyətinə nail olmağa çalışsa da, nəticə verməyəcəyini anladı. Çünki Azərbaycanla Rusiya arasında müəyyən fikir ayrılıqları olsa da, dövlətlərarası əlaqələr, iqtisadi və humanitar əməkdaşlıq yüksək səviyyədədir", - deyə V.Əhmədov söyləyib.

Deputatın sözlərinə görə, Qərb ölkələri, eləcə də ABŞ Azərbaycanla Türkiyənin dostluq münasibətlərini də həzm edə bilmirlər: "Xüsusilə Şuşa Bəyannaməsindən sonra bunu daha qabarıq şəkildə büruzə verirlər. Yəni başa düşürlər ki, bu bəyannamə ilə həm Azərbaycanın, həm də Türkiyənin təhlükəsizliyi sığortalanıb. Bütün bu hadisələr ABŞ-nin xoşuna gəlmir və onlar öz ambisiyaları naminə bütün dövlətlərin məhz Ermənistana dəstək verməsini istəyirlər. Ermənilərə bu şəkildə dəstək verməklə bu ölkəni Rusiyadan uzaqlaşdırmağa çalışırlar. Bunun nəticəsidir ki, son illər İrəvan əsasən Avropaya meyil göstərir".

Vahid Əhmədov həmçinin vurğulayıb ki, bu gün dünyanın müxtəlif bölgələrində baş verən müharibələr, dövlət çevrilişləri və vətəndaş müharibələrində ABŞ-nin rolunu danmaq olmaz. Qəzzada baş verənlərin əsas müəllifi, Rusiya-Ukrayna qarşıdurmasının gərginləşməsinin başlıca səbəbkarı məhz Vaşinqtondur. Bundan başqa, ABŞ-nin Latın Amerikasında və Afrika qitəsində törətdiyi cinayətlər də hər kəsə yaxşı məlumdur. Bütün bunlar, eləcə də ölkəmizə qarşı nümayiş etdirilən arasıkəsilməz riyakarlıqlar bir daha onu deməyə əsas verir ki, Cənubi Qafqazda hələ də davam edən siyasi kataklizmlərin ən böyük səbəbkarı da ABŞ-dir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qərb Cənubi Qafqazda yaranan yeni reallıqları qəbul edə bilmir

Qərbin uzun illərdən bəri nümayiş etdirdiyi riyakar, qərəzli münasibətini görməmək mümkün deyil. Amma görünən odur ki, onlar Azərbaycana qarşı otuz il ərzində edilən haqsızlıqları, üç il ərzində isə Cənubi Qafqazda yaranan yeni reallıqları görmək, bu haqda danışmaq istəməyib və indi də istəmirlər. Daha doğrusu, kor, lal, kar olmağa üstünlük verirlər.



Cənubi Qafqazla bağlı xəyallarının suya düşdüyünü görən, bu regionla bağlı planları alt-üst edilən bəzi Avropa ölkələri hansı yolla olur olsun, Azərbaycan haqqında mənfi fikir formalaşdırmağa çalışırlar.

Bunun üçün ən asan yol isə daim müxtəlif siyasi dairələrin, dövlətlərin oyuncağı rolunda olan Ermənistandan keçir. Hər zaman müxtəlif məqsədlər üçün istifadə olunan ermənilər bu gün də Qərbin, ABŞ-nin Cənubi Qafqazda maraqlarının təmin edilməsi üçün bir oyuncaq kimi ordan-ora atılır.

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasında, iki ölkə arasında sülh müqaviləsinin bağlanmasında vasitəçi olmağa can atanların məqsədi, əslində, sabitlik, əmin-amanlıq yaratmaq deyil, öz maraqlarını həyata keçirməkdir. Bunu atdıqları bütün addımlarda bariz şəkildə nümayiş etdirirlər.

Dünya siyasətinin geostrateji maraqlar, bununla yanaşı, xristian təəssübkeşliyi üzərində qurulduğunu təəssüflə qeyd edən Milli Məclisin deputatı Tahir Kərimli "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, bu baxımdan Qərbin anti-Azərbaycan siyasəti təəccüb doğurmamalıdır. O, öz riyakarlığından əl çəkməyəcəkdir.

Deputat vurğulayıb ki, bu, ilk hal deyil, həmişə belə olub: "Biz vaxtilə Rusiya imperiyasının erməniləri ərazilərimizə köçürüb tarixi torpaqlarımızda dövlət qurmasını görmüşük. İndi də Rusiyanı sıxışdırmaq istəyən Qərbin Cənubi Qafqazda Azərbaycana qarşı mənfi münasibətini müşahidə edirik. Qərb otuz il bir milyon vətəndaşımızı qaçqın salan, vəhşicəsinə öldürərək, döyərək didərgin salan erməniləri kor kimi görmür, amma mədəni surətdə yola salınan bir neçə min ermənini dərhal görür. Qərb xaraba günə qoyulan şəhərlərimizi, kəndlərimizi görmür. Ancaq bir erməni kilsəsi zədələnən kimi hay-küy salır. Burada müsəlman xalqları arasında vaxtilə birliyin olmaması, güclü iqtisadiyyata sahib olmamaları, hərbi güclərinin zəif olması böyük rol oynayıb. Onlar da bundan istifadə edərək bizi parçalamaq istəyib, bir-birimizə qarşı qoyublar. Ona görə də biz Azərbaycan xalqı kimi Prezidentimizin ətrafında çox möhkəm birləşməliyik, onun doğru hesab etdiyimiz siyasətini dəstəkləməli, on milyonluq bir yumruq kimi olmalıyıq ki, bütün dünya bizim iradəmizi, haqlı mövqeyimizi görsün".

Deputat hesab edir ki, Azərbaycan tərəfinin bu istiqamətdə atdığı addımlar doğrudur. "Biz Amerika Birləşmiş Ştatlarının, Fransanın, Qərbin mənfi, riyakar siyasətini nəinki hiss edir, bəzən hətta düşmən mövqeyini belə görürük. Bunun qarşısında duruş gətirmək üçün hüquqi mexanizmlərdən də istifadə etməliyik", - deyə o əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Bacılar"ın sinxron yaramazlıqları

## Fransada və Ermənistanda sinaqoqlar eyni vaxtda təhqir olunur








Fransada Birinci Dünya müharibəsi zamanı qəbiristanlıqdakı yəhudi məzarları təhqir edilib. Abidələr və qəbirüstü başdaşları vandallar tərədindən dağıdılıb. Yerli hakimiyyət orqanları bu hərəkətlərin ölkə daxilində antisemitizm cinayətlərinin artmasına səbəb olduğunu bildirib.

AFP agentliyi xəbər verir ki, Parisin şimalındakı Oise bölgəsindəki qəbiristanlıqda məzar daşları sındırılıb və ya zədələnib. "France Bleu" radiostansiyasının verdiyi məlumata görə, vandallar ölkənin alman hərbi qəbiristanlığında on yəhudi məzarını təhqir ediblər. Departamentin prefekturasından jurnalistlərə bildiriblər ki, qəbiristanlıqda 1903 xristian və yəhudi məzarı var. Onlarda Birinci Dünya müharibəsində Kayzer ordusu tərəfindən vuruşmuş əsgərlər uyuyur. Prokurorlar hücum edənlərin hərəkətlərinin arxasında irqçilik və ya dini motivləri araşdırdıqlarını bildiriblər. Oise bölgəsinin prefekti Katrin Seguin məzar daşlarının dağıdılmasını "alçaqlıq" adlandırıb.

### Fransa İkinci Dünya müharibəsindən bəri ən böyük antisemitizm dalğasını yaşayır

Fransa daxili işlər naziri Cerald Darmanen bildirib ki, son 40 gün ərzində Fransada 1500-dən çox antisemit hərəkət və şərh qeydə alınıb. Ölkə parlamentinin üzvü Jan-Filip Tanginin fikrincə, Fransa İkinci Dünya müharibəsindən bəri ən böyük antisemitizm dalğasını yaşayır. Məsələn, ötən cümə axşamı Paris metrosunda yerli sinaqoqun ravvininə hücum edilib. Polis cinayətdə şübhəli bilinən şəxsi saxlamağa müvəffəq olub. Tanginin dediyinə görə, oktyabrın 7-dən noyabrın 7-dək respublikada 1200 antisemit hadisə qeydə alınıb ki, bu da bütün 2022-ci ildə baş verənlərdən üç dəfə çoxdur. Söhbət vandalizm aktlarından və ayrı-ayrı şəxslərə hücumlardan gedir. Polis əcnəbilər də daxil olmaqla 500-dən çox insanı saxlayıb.

Xatırladaq ki, bu yaxınlarda Parisdə, eləcə də onun şəhərətrafı Sent-Ouen və Aubervilliers kommunalarında yəhudi ailələrinin yaşadığı evlərə Davud ulduzları çəkilib. Sonra Beşinci Respublikanın Xarici İşlər Nazirliyi bu vəziyyətə görə Moskvanı günahlandırmağa tələsib, lakin Rusiya səfirliyi bildirib ki, yəhudilərin evlərinin üstündə Davud ulduzlarının çəkilməsi rus deyil, Qərbi Avropa ənənəsidir.

### Ermənistan "böyük bacısı"ndan heç də geri qalmır

Fransa Ədliyyə Nazirliyinin məlumatına əsasən, Fransada antisemitizm və terrorizmə bəraət qazandırılması ilə bağlı qısa müddətdə ümumilikdə 330 təhqiqat işi başlayıb.

Qeyd edək ki, belə yaramazlıq hərəkətlərini - antisemit cinayətlərini törətməkdə Ermənistan "böyük bacısı"ndan heç də geri qalmır və bunu sinxron halda həyata keçirirlər. Belə ki, Yerevanda noyabrın 15-də naməlum şəxslər yenidən vandallıq nümayiş etdirərək yəhudi sinaqoqunu yandırıblar.

Ötən ayın 3-də də İrəvanda fəaliyyət göstərən yeganə Mordechai HaNavi sinaqoqu ermənilərin hücumuna məruz qalıb və təhqir edilib. Terrorçu ASALA_və Ermənistanın Gənc Azadlıq Mübarizəçiləri (YFFA) təşkilatları sinaqoqun təhqir olunmasına görə məsuliyyəti öz üzərlərinə götürüblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Böyük qayıdış" proqramı sürətlə icra olunur

## Quruculuq təntənəsi

### Bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq meydanına, cənnətməkana çevrilib









"Böyük qayıdış proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir".

Sentyabrın 29-da Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq meydanına, cənnətməkana çevrilib.

30 il ərzində düşmənin daşı daş üstündə qoymadığı, "ölü torpaq" siyasəti həyata keçirdiyi 10 min kvadratkilometr ərazidə dünyada bərabərinə rastlanmayan miqyasda tikinti və quruculuq işləri aparılır, müasir infrastruktur qurulur, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, nəhəng tunellər salınır, modern şəhər və kəndlər yaradılır.

Dövlətimiz tərəfindən Böyük qayıdışla bağlı görülən yüksəksəviyyəli hazırlığın misilsiz nəticəsidir ki, artıq qədim yurdlarımızda yeni və xoşbəxt yaşam başlayıb, ağalılıların, talışlıların, zabuxluların, laçınlıların, füzulililərin timsalında dədə-baba yurdlarımıza doğma nəfəs, hənir qayıdıb.

#### Milli çağırış

2020-ci ilin noyabrından, 44 günlük Vətən müharibəsinin başa çatmasından dərhal sonra Azərbaycan işğaldan azad etmiş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayıb. Qarabağa və Şərqi Zəngəzura qayıdışı milli çağırışımız elan edən Prezident İlham Əliyevin şəxsi nəzarəti altında bu yerlərdə kompleks iş aparılır, əhalinin təhlükəsiz və ləyaqətli yaşamı üçün hər cür şərait yaradılır.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Hazırda bu proqram böyük müvəffəqiyyətlə icra olunur və həmin ərazilərdə vüsət alan genişmiqyaslı quruculuq işlərini dövlətimiz öz hesabına həyata keçirir.

Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən üç il müddətində dövlət büdcəmizin əsas prioritetlərindən biri də milli hədəfimiz olan qayıdışa nail olunması istiqamətindədir.

2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat, gələn ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

#### Quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır

İşğaldan azad edilən yurdlarımız düşmənin basdırdığı minalardan qarışqarış təmizləndikcə, həmin yerlərdə təhlükəsiz yaşam qurulur. Müasir infrastruktur layihələri həyata keçirilən, dəmir və avtomobil yolları, tunellər çəkilən, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülən, "ağıllı kənd və şəhərlər" salınan Qarabağ və Şərqi Zəngəzurda artıq iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan hava limanları tikilərək istifadəyə verilib. Sözügedən hava limanlarının hər ikisinin açılışını Prezident İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan edib. Laçın Beynəlxalq Hava Limanının isə sürətli tikintisi həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni irsimiz Heydər Əliyev Fondu tərəfindən uğurla bərpa olunur. Dövlət başçısı İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə mütəmadi olaraq Qarabağa və Şərqi Zəngəzura səfər etmələri zamanı bu yerlərin getdikcə dəyişən simasına daha yaxından şahidlik edirik.

Vətən müharibəsindən sonra dəfələrlə işğaldan azad edilən ərazilərə yollanan qurucu lider İlham Əliyev burada yüzlərlə yaşayış məntəqəsinin təməlini qoyub, yeni açılışlar edib, doğma yurdlarına dönən sakinləri öz evlərində ziyarət edib, qayıdış sevincini onlarla birgə yaşayıb.

Təkcə bu il mayın 2-dən etibarən düz 10 gün ərzində Qarabağ və Şərqi Zəngəzur bölgəsini addım-addım gəzən Prezident İlham Əliyev Ağdamda, Cəbrayılda, Xocavənddə, Füzulidə, Qubadlıda, Zəngilanda, Laçında, Şuşada müxtəlif layihələrin, kəndlərin bünövrəsini qoydu, yeni açılışlar etdi, görülən işlərlə yerində tanış oldu.

Dövlət başçısı mayın 10-da Ulu Öndər Heydər Əliyevin 100-cü ildönümündə Şuşadan xalqa etdiyi müraciətində xüsusi vurğuladı ki, on günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə bu ərazilərin dirçəldiyini görüb. Bu gün yurd yerlərimizdə yeni yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində isə Azərbaycan xalqının maraqları dayanır.

#### Bu tarixi yurdlarımız da dirçəldilir

Ümumiyyətlə, Prezident ənənəsinə sadiq qalaraq bu il ərzində dəfələrlə Qarabağ və Şərqi Zəngəzura səfərlər edib, Kəlbəcərdə, Laçında, Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Ağdamda quruculuq işləri ilə yaxından tanış olub, açılışlar edib, yeni təməllər atıb.

Böyük qayıdış proqramının uğurla icra edilməsi sayəsində artıq üç mindən çox keçmiş məcburi köçkün öz yurduna qayıdıb. 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə sakinlərinin qaytarılması ilə uğurlu start verilən Böyük Qayıdışla Tərtərin Talış, Laçının Zabux kəndlərinə, eləcə də Laçın və Füzuli şəhərlərinə mərhələli şəkildə köç həyata keçirilib.

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 325 ailə (1245 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 71 ailə (291 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 3425 keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq keçmiş məcburi köçkünün geri dönməsi nəzərdə tutulur.

İşğaldan azad edilən torpaqlarımızda aparılan mühüm bərpa-quruculuq işləri, həyata keçirilən qayıdış prosesləri dövlətimiz tərəfindən Böyük qayıdış proqramının uğurla icra edilməsinin parlaq göstəricisidir.

Qalib lider İlham Əliyevin oktyabrın 15-də Qarabağda - Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə, Əsgəranda Azərbaycan bayrağını dalğalandırması isə onilliklərdir separatçıların "boz zona"ya çevirdiyi bu tarixi yurdlarımızın da yaşıllaşdırılacağının, dirçəldiləcəyinin qürurlu ismarışıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*





## Zabux kəndində daha 25 ailəyə evlərin açarları təqdim olunub

Noyabrın 18-də Laçın rayonu Zabux kəndində məskunlaşan ailələrə evlərin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Laçın rayonunun Zabux kəndi daha 25 ailəyə qucaq açıb və 103 nəfər öz doğma kəndində məskunlaşıb. Bugünkü köç karvanı Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Zabuxa qədəm qoyan ailələr qarşılandıqdan sonra keçirilən açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Natiq Hüseynov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və digər şəxslər iştirak ediblər.





Ailələr sevinc hissi ilə açarları təhvil alıblar. Bununla da Zabux kəndində 71 ailənin, yəni 291 nəfərin daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, Zabux kənd sakinləri üçün doğma kəndlərində dövlət başçısının göstərişi əsasında yenidən tikilən evlərdə bütün şərait yaradılıb.

## "Həyatımın ən gözəl günlərini gənc yaşımda Zabuxda yaşamışam"

"Həyatımın ən gözəl günlərini gənc yaşımda Zabuxda yaşamışam. Sonra işğal nəticəsində məcburən Bakıya köçməli olduq. İndi isə ailəliklə doğma torpağımıza, evimizə qayıdırıq".

Bu sözləri AZƏRTAC-a müsahibəsində noyabrın 18-də Bakıdan Laçının Zabux kəndinə yola salınan keçmiş məcburi köçkün Sona Abdulova deyib.




"Azərbaycanın hər diyarı bir sərvətdir, gözəldir. Amma Laçın rayonu, Zabux kəndi mənim üçün daha da əzizdir. Şükürlər olsun ki, Prezident, Ali Baş Komandan İlham Əliyev rəhbərliyi, şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin şücaəti sayəsində bu gün biz sağ-salamat öz doğma elimizə, obamıza qayıdırıq. Allah Böyük qayıdışı gözləyən digər keçmiş məcburi köçkünlərə də bu günü yaşatsın", - deyə Zabux sakini hisslərini bölüşüb.

Qeyd edək ki, Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Zabuxa yola salınıb. Bu mərhələdə Zabux kəndinə daha 25 ailə - 103 nəfər köçürülür. İndiyədək Zabux kəndində 71 ailənin, yəni 291 nəfərin daimi məskunlaşması təmin edilib.

Zabuxa ilk köç bu il avqustun 25-də baş tutub.

## Böyük qayıdış: növbəti püşkatma olub

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə növbəti mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.



Komitədən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin, ərazisi işğaldan azad olunmuş rayonların icra hakimiyyətlərinin rəsmiləri, Milli Məclisin deputatları, Dövlət Komitəsi yanında İctimai Şuranın üzvləri, QHT nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov bildirib ki, hazırda Azərbaycan dövlətinin qarşısında işğaldan azad edilmiş ərazilərin bərpası, davamlı inkişafı və məcburi köçkünlərin doğma yurda qayıdışının təmin edilməsi kimi şərəfli vəzifə durur. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin sosial siyasətində qaçqınlara və məcburi köçkünlərə dəstək və qayğı xüsusi yer tutur, Birinci vitse-prezident Mehriban Əliyeva onların yaşayış şəraitinin yaxşılaşdırılmasını, təhsil, sağlamlıq, mədəni inkişaf məsələlərinin həllini daim diqqətdə saxlayır.

Böyük Qayıdış üzrə I Dövlət Proqramı çərçivəsində Füzulidə tikilən yaşayış məhəllələrinə növbəti mərhələdə 122 ailənin (461 nəfər) köçürüləcəyini vurğulayan sədr müavini bununla da şəhərdə 380 ailənin (1389 nəfər) daimi məskunlaşacağını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Füzulidə məcburi köçkünlərin rahat və təhlükəsiz yaşayışının təmin edilməsi üçün zəruri infrastruktur yaradılıb. Qeyd edilib ki, məcburi köçkün ailələrin nümayəndələri püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanını müəyyənləşdirirlər. Tədbirdə çıxış edən Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, müasir standartlara uyğun olaraq yenidən qurulan Füzuli şəhərində bərpa-quruculuq işləri davam edir. Püşkatmanın keçirilməsi, sakinlərin doğma yurdlarına qayıdışı orada yeni həyatın başlanmasını göstərir. Bu, qürurverici mənzərədir. Füzuli bərpa və yenidənqurma mərhələsi ilə yanaşı, məskunlaşma, iqtisadiyyatın formalaşması və reinteqrasiya mərhələsinə də daxil olub.

BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandra Rokkasalvo insanların qayıdışa hazırlanmasını, nəsillər arasında bağlılıq yaradılmasını yüksək qiymətləndirib. Qeyd edib ki, Azərbaycan məcburi köçkünlərin geri qayıdışı təcrübəsi ilə bağlı dünyaya nümunə göstərir.

Tezliklə daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini qeyd ediblər. Onlar işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə və məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak edən ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Ailə tərkibinə uyğun olaraq, onlardan 47-si ikiotaqlı, 58-i üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Füzuli şəhərinə yola salınacaq.






# Gənclik






Gənclər siyasəti



# Gələcəyin addım səsləri

## Ölkəmizdə gəncliyin inkişafı üçün geniş imkanlar yaradılıb

**Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Bu qüvvəni hədəfə düzgün istiqamətləndirəndə uğurlara gedən qapılar daha geniş açılır. Müstəqil Azərbaycanın inkişafında böyük potensiala malik, yenilməz qüvvə kimi fəallıq göstərən gəncliyin cəmiyyətdəki rolu gündən-günə artır. Sabahımızın qurucusu olan gənclərimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısını daim öz üzərlərində hiss edirlər.**

Dövlət başçısının rəhbərliyi ilə respublikamızda həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət və qayğının artırılmasından ibarətdir. Son illər həyata keçirilən uğurlu islahatlar gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi təminatların yaradılmasını xeyli sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına çoxşaxəli şərait yaradıb. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində həmişə öndə addımlayırlar. Prezident İlham Əliyevin gerçəkləşdirdiyi uğurlu siyasət gənclərin sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, ümumiyyətlə, cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Bu gün 2 milyondan çox gənci birləşdirən orduya malik respublikamız sabahımızın qurucularına verdiyi diqqət, göstərdiyi qayğı, bu sahədə həyata keçirdiyi islahatlar nəticəsində qazandığı uğurlara görə dünyanın bir çox inkişaf etmiş ölkəsindən öndədir.

Azərbaycanda hər bir sahədə olduğu kimi, gənclər siyasətində də inkişaf Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli istəyi və tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra başladı. Dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi üçün Ulu Öndər bu sahənin inkişafına böyük önəm verirdi. Uzun illərin idarəçilik təcrübəsinə və dərin zəkaya sahib olan Ümummilli Lider Azərbaycanın müstəqilliyinin və gələcək inkişafının əsas təminatçılarının gənclər olacağını yaxşı bilirdi. Məhz buna görə də yenidən hakimiyyətə qayıdan Ulu Öndər gənclərlə görüşlər keçirir, problemləri ilə yaxından maraqlanırdı və onların həll olunması üçün müvafiq göstəriş və sərəncamlar verirdi. Ulu Öndər Heydər Əliyev 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin birinci forumunda çıxış edərək onların qarşısında dayanan vəzifələri qısaca olaraq belə ifadə etmişdi: "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır". Ümummilli Liderin tələb və tövsiyələri Azərbaycan gəncliyinin inkişafına güclü təkan verdi, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynadı.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin müsbət nəticəsidir ki, Azərbaycan gəncləri bütün sahələrdə böyük uğurlar qazanırlar. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Gənclərimiz ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Dövlətin yaratdığı geniş imkanlar nəticəsində onlar cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər.

Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən gənclər siyasəti ölkənin ictimai həyatında bu qüvvənin yaxından iştirakını təmin etməkdədir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində Azərbaycan gəncləri idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük uğurlar əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edirlər. Hazırda inkişaf edən, bütün istiqamətlərdə davamlı olaraq gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir gənc, hər bir vətəndaş üçün çox önəmlidir. Azərbaycan Prezidenti İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Azərbaycan Prezidentinin bu sözlərindən ruhlanan gənclər Ali Baş Komandanın ətrafında daha da sıx birləşdilər. Gənclərimiz ölkəmizin inkişafına xidmət etməyin, dövlətimizə qarşı yönəlmiş təsirlərlə mübarizə aparmağın, ən əsası isə uzun illərdən bəri torpaqlarımızın düşmən işğalından azad olunmasının və ərazi bütövlüyümüzün bərpa edilməsinin ən müqəddəs vəzifələr olduğunu dərindən anladılar. Vətənpərvər Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük zəfər qazandılar. Erməni qəsbkarlarını məhv edərək tarixi torpaqlarımızı işğaldan azad etdilər. Azərbaycan gənclərinin qəhrəmanlığını yüksək qiymətləndirən Prezident İlham Əliyev deyir: "Biz qəlbində güclü vətən sevgisi olan gənc nəsil yetişdirdik. Hətta torpaqlarını görməyən gənclər bir arzu ilə yaşayıb ki, ədalət bərpa olunsun və onlar öz doğma torpaqlarına qayıtsınlar".

Azərbaycan gəncliyi bundan sonra da Prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcək, xalqımıza, dövlətimizə layiqincə xidmət edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Tarix yazan oğullar

# Yurda dönəcəyimizə inamımızı heç vaxt itirmədik

**Ağayev Şahin Vaqif oğlu 5 oktyabr 1982-ci ildə Füzuli rayonunun Şəkərcik kəndində dünyaya göz açıb. Erməni işğalçıları onun qoynunda doğulduğu el-obaya hücum çəkib odlara qalayanda 11 yaşı olub. Yaşı az olsa da, Şahin şahidi olduğu hadisələri uşaq yaddaşına yazıb. Yaddaşında iz salan bu qanlı hadisələr onun ermənilərə qarşı nifrət hissini daim artırıb. Kiçik yaşlarında doğma ocaqlarından didərgin düşən Şahin bir gün, bir an olsun belə evlərini, oxuduğu məktəbi yaddan çıxarmayıb. Günlərin birində yurda dönəcəklərinə inamını heç vaxt itirməyib.**



1993-cü il avqustun 23-də Şəkərcik kəndindən erməni təcavüzü nəticəsində qaçqın düşdükdən sonra Şahingilin ailəsi böyük çətinliklə Beyləqan rayonunda məskunlaşıb. Şahin də Şəkərcik kəndində yarımçıq qalmış orta təhsilini buradakı məktəbdə davam etdirib. Amma Beyləqandakı məktəb Şəkərcikdəkinin yerini verməyib. Ürəyindən doğma ocaqlarına qayıtmaq, orta məktəbi orada oxumaq keçib. Təəssüflər olsun ki, erməni işğalı buna imkan verməyib. Hiss olunmadan keçən illər onun yaşının üstünə yaş gətirib. Yaz günlərinin birində Şəkərcik kəndinin həsrətini çəkə-çəkə orta təhsilini başa vuran Şahin 2000-ci ildə ordu sıralarına çağrılıb. Vətənə əsgər olmaq arzusuna qovuşub. Xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində yerinə yetirib.

Şahin Ağayev 2012-ci ildən gizir kimi Azərbaycan Ordusunun sıralarında xidmətə başlayıb. Bacarığı ilə elə ilk günlərdən komandir heyətinin rəğbətini qazanıb. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən fəxri fərmanlar və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələn gizir Şahin Ağayev 44 günlük Vətən müharibəsində yaxından iştirak edib. Tərtər rayonunun Talış və Suqovuşan kəndləri uğrunda cəsarətlə vuruşub. Qarabağı erməni işğalından azad etmək amalı ilə döyüşüb. Çətinliklə də olsa, amalına çatıb. Döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

İştirakçısı olduğu döyüşlərdən söz açan Şahin Ağayev dedi ki, 2020-ci il sentyabr 27-də erməni təxribatı nəticəsində 44 günlük Vətən müharibəsinin başladığından xəbər tutan kimi döyüşə yollanıb. Bölükləri Tərtər rayonunun Suqovuşan və Talış kəndləri istiqamətində mövqe tutub. İlk günlərdən qəsbkarlara sarsıdıcı zərbələr vurublar. Nə qədər müqavimət göstərsələr də, biz erməni silahlı dəstələrini Suqovuşan və Talış kəndlərindən, həmçinin ətrafdakı yüksəkliklərdən qovublar: "Döyüşlər dayanandan sonra kəndimizə getdim. Çox dəhşətli bir mənzərə ilə qarşılaşdım. Ermənilər evləri, məhəllələri, məktəbimizi darmadağın etmişdilər. Hər yan tanınmaz hala salınmışdı. Şəkərciyin hər addımında erməni faşizminin qanlı izləri qalmışdı. Bunları görəndə xatırladım ki, daşnaklar ötən əsrin əvvəllərində ulu baba və nənəmi də Qərbi Azərbaycanın Sisyan rayonunun Cömərtli kəndindən didərgin salmışdılar. İşğalçılar onların da evlərini, yurd yerlərini bax, bu cür viran qoymuşdular. Biz, onların nəvələri də illərdən sonra erməni vandalizmi ilə üz-üzə qaldıq. Nəhayət, tarixi Zəfər qazandıq. Bütün qaçqınlar doğma ocaqlarına qayıdacaqlar. Yaxın günlərdə ordu sıralarından ehtiyata buraxılmışam. Buna baxmayaraq, əgər Vətən əmr etsə, yenə də hər an döyüşə getməyə hazıram".

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

İstedadlar

# Bənzərsiz ifalar



**Onu Azərbaycandan daha çox Amerikada, Ağ Evin qarşısında qara zurnada "Köçəri yallısı" ifa edən gənc kimi tanıyırlar. Bir neçə il bundan əvvəl sosial şəbəkələrin, saytların əsl qəhrəmanına çevrilmişdi. Hamı ondan yazırdı…**

Onda Qarabağ düşmən işğalı altında idi. Torpağımıza müvəqqəti "əl qoyan" düşmənin əli kimi, dili də uzanmışdı. Rəqslərimizə, musiqimizə, musiqi alətlərimizə, hətta milli mətbəximizə də ağız suyu axıdırdılar…

Tale elə gətirdi ki, bir gün biz Orxanla Şuşada Cıdır düzündə rastlaşdıq. Qara zurnanın coşqun səsi qıy çəkib qayalarda əks-səda verirdi. Şövqlə çalınan fərqli bir ifa idi…

Orxan bu dəfə "Cəngi" çalırdı. Sanki sinəsi qürurdan qabarmış, fərəhdən bir boy da ucalıb başı buludlara dirənən şiş qayalar da, göydə uçan quşlar da qanad saxlayıb Şuşanı düşmən işğalından azad edən Azərbaycan əsgərinin şəninə alqış deyirdi. Qan coşduran bu ifa altında hamı əl-ələ, qol-qola tutmuşdu…

Orxanla söhbətə də elə Ağ Evin qarşısındakı ifası ilə cığır açırıq:

- 2018-ci ildə Azərbaycanın Amerikadakı səfirliyinin dəvəti ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibəti ilə keçirilən tədbirlərdə iştirak etmək üçün Vaşinqtona dəvət olunmuşduq. Orada belə qərara gəldik ki, Ağ Evin qarşısında "Köçəri yallısı"nı ifa edim. Bu bir etiraz forması idi. İllərdir ki, Ermənistan Qarabağı işğal altında saxlayırdı. Qarabağ problemində vasitəçilik edən, dünyanın supergücü sayılan ABŞ-nin məsələyə loyal münasibəti problemin həllindən çox dondurulmasına xidmət edirdi. Təbii ki, bu da haqlı olaraq xalqımızı razı sala bilməzdi.

Torpaqlarımızı işğal edən ermənilər həm də musiqimizi mənimsəmək istəyirdilər. Ağ Evin qarşısında ifa etdiyim "Köçəri yallısı"nın da onlara aid olması barədə uydurma fikirlər səsləndirirdilər. "Yallı" Azərbaycanın birlik rəmzi sayılan qədim rəqs növlərindən biridir. Bu rəqsin öz fəlsəfi mənası var. "Köçəri yallısı"nı ifa etməkdə məqsədimiz dünyanı dinlərə, irqlərə parçalayanlara etiraz etmək, bəşəriyyəti birliyə, sülhə çağırmaq idi. Həm də öz ifamızla ermənilərə cavab verirdik. Təbii ki, ədalət olmayan yerdə sülh də, birlik də olmur. Şükürlər olsun ki, Azərbaycan özü heç kimin köməyi olmadan ədaləti bərpa etdi…

Orxan 2017-ci ildə Moskvanın Birinci kanalında "Pole çudes" verilişinin, 2018-ci ildə ABŞ-nin Vaşinqton şəhərinin, 2019-cu il Çin Xalq Respublikasının Dövlət müşaviri və xarici işlər naziri Van İ və xanımının təşəbbüsü ilə Pekində keçirilən "Sevgi sərhəd tanımır" adlı xeyriyyə sərgisinin iştirakçısı olub. Balabanda və qara zurnada ifa etməklə Azərbaycan musiqisini, incəsənətini təmsil edib. O deyir ki, harada olubsa, çalışıb ki, vətəninin, xalqının mənəvi xəzinəsi olan musiqimizi insanlara layiqincə təqdim edə bilsin: "Etiraf edim ki, dünyanın harasında olmuşamsa, Şuşada, Cıdır düzündə, "Xarıbülbül" festivalında ifa etdiyim qədər həyəcan keçirməmişəm. O anlar bir ayrı hiss keçirirdim. Müzəffər bir xalqın nümayəndəsi kimi çox qürurluydum. İfa edərkən gözlərim önündə o sıldırım qayaları aşıb bizə bu qüruru yaşadan qəhrəmanlarımızın obrazı canlanırdı… İfamla onların qəhrəmanlıqlarını tərənnüm etmək istəyirdim".

Orxan Nüsrət oğlu Soltanov 1991-ci ildə Ucar rayonunda anadan olub. Ucar 1 saylı orta məktəbin məzunudur. İlk musiqi təhsilini də Ucarda alıb.

Orxan deyir ki, Ucar musiqi məktəbində balaban və qara zurna dərsi keçilmirdi. Ona görə də tar dərslərinə gedirdi. Balabanı, qara zurnanı ona mərhum əmisi Natiq sevdirib. Əmisi Azərbaycanda bu ailətlərin məşhur ifaçılarından, bilicilərindən olub…

Qeyd etmək yerinə düşər ki, Orxan Soltanovun babası Fərhad Soltanov da məşhur Azərbaycan aşıqlarından olub. İndi bu sənət ocağının ənənələrini davam etdirmək onun üzərinə düşüb.

2009-2011-ci illərdə hərbi xidmətdə olan Orxan Soltanov əsgəri xidmətini başa vurduqdan sonra Azərbaycan Milli Konservatoriyasında təhsil alıb. Konservatoriyanı bitirdikdən sonra Cənubi Koreyaya dəvət olunan Orxan bir müddət bu ölkənin dövlət orkestrində çalışıb. 2020-ci ildən isə balaban və qara zurnanın bənzərsiz ifaçılarından hesab olunan gənc ifaçı Orxan Soltanov Azərbaycan Dövlət Akademik Filarmoniyasında çalışır.

Orxan deyir ki, avqustun 26-da Laçın Şəhəri Günündə Laçında qəhrəmanlıq musiqimizi ifa edərkən səsi dağlarda əks-səda verəndə ürəyindən bir arzu keçib: "Kaş bu musiqini Xankəndidə də ifa edə biləydim". Çox şükür ki, bu arzusuna da çatmaq üzrədir. İndi uzun illər separatçıların məskən saldığı Xankəndidə də Azərbaycan bayrağı dalğalanır. Tezliklə bu şəhərimizdə də "Cəngi" çalacağına əmindir. Bizə bu qüruru yaşadan ordumuza, bu ordunu qurub ona sərkərdəlik edən, qələbəyə aparan Ali Baş Komandanımıza minnətdarıq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Xəbər

# UNEC "Gələcəyin tədqiqatçıları"nı yetişdirir

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ölkəmizdə sosial elmlər üzrə kadr potensialına töhfə verəcək yeni layihənin icrasına başlayıb.**

Bu barədə UNEC Empirik Tədqiqatlar Mərkəzinin rəhbəri dosent Xətai Alıyev məlumat verib. O bildirib ki, UNEC Empirik Tədqiqatlar Mərkəzi tərəfindən icra olunan və UNEC Tədqiqat Fondu tərəfindən maliyyələşdirilən "Gələcəyin tədqiqatçıları" layihəsi həyata keçirilir. Layihə çərçivəsində UNEC-in 57 tələbəsi seçilərək mərkəzin rəhbər müavini, Böyük Britaniyanın Qlazqo Universitetinin doktorantı Nicat Muradzadə tərəfindən təşkil edilən 32 saatlıq onlayn təlimə cəlb olunub.

Layihənin məqsədi UNEC tələbələrində elmi tədqiqata marağı artırmaq, onlara zəruri tədqiqat bacarıqları aşılamaq və akademik mentor nəzarətində elmi məqalə yazmalarına nail olmaqdır. Layihə çərçivəsində azı 20 iştirakçının potensial tədqiqatçı kimi yetişdirilməsi və yazılan elmi məqalələrin nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmasına dəstək verilməsi planlaşdırılır.



# REGİONLAR

## Naftalanda Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbir keçirilib



**Naftalanda "Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda tədbir keçirilmişdir. Öncə Ulu Öndərin xidmətlərini əks etdirən videoçarx nümayiş etdirilmişdir.**

Tədbiri giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə tarixi xilaskarlıq missiyasını yerinə yetirməsindən və Azərbaycanı tənəzzüldən, durğunluqdan, xaosdan çıxararaq inkişafa, tərəqqiyə doğru aparmasından danışmışdır. Qeyd etmişdir ki, bugünkü əzəmətli və qüdrətli Azərbaycan dövlətinin uğurları məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur.

Azərbaycanın Milli Qəhrəmanı Niyazi Aslanovun həyat yoldaşı Rübabə İsmayılova da Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətlərinin əvəzsiz olduğunu qeyd etmiş və 90-cı illərdə Heydər Əliyevlə görüşlərini xatırlamışdır.

Tədbirin sonunda Ulu Öndərin 100 illiyi ilə bağlı xatirə hədiyyəsi YAP Naftalan şəhər təşkilatına hədiyyə edilmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Mingəçevirdə antiterror tədbirlərində yaralanan əsgərlər ziyarət olunub

**Mingəçevirdə şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilir.**



Bu günlər şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov başda olmaqla bir qrup məsul şəxs, o cümlədən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər şöbə rəisi Rövşən Məmmədov Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı yaralanan mingəçevirli əsgərləri ziyarət etmişlər.

Ziyarət zamanı icra başçısı əsgərlərin müalicəsi, gündəlik qayğı və problemləri ilə maraqlanmışdır. Yaralı hərbçilərimizin ailələri ilə söhbətdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində qazanılan şanlı qələbədən, döyüşlərdə iştirak edən əsgər və zabitlərimizin qəhrəmanlığından danışılmışdır. Bildirilmişdir ki, bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun həyata keçirdiyi lokal antiterror tədbirləri zamanı düşmənə elə zərbə endirildi ki, onlar hələ də özlərinə gələ bilməyiblər. "Dəmir yumruq" növbəti dəfə düşmənə öz gücünü göstərdi. Nəticədə erməni separatçıları bir sutka ərzində təslim oldular. Bu tədbir də dünya hərb tarixinə nadir qələbə kimi düşdü.

Qeyd edək ki, lokal antiterror tədbirləri zamanı Mingəçevirdən 8 hərbçi yaralanmışdır. Hazırda onların müalicələri davam etdirilir.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Naxçıvanda uşaq bağçalarına qəbul elektron sistem üzərindən aparılacaq

**Naxçıvan Muxtar Respublikasında məktəbəqədər təhsil müəssisələri noyabrın 16-dan başlayaraq ümumölkə informasiya sisteminə inteqrasiya olunur.**

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının, pedaqoji və texniki heyətinin, uşaqların ümumi məlumatlarının sistemə inteqrasiyası həyata keçirilir və bu prosesi həyata keçirəcək əməkdaşlar üçün təlimlər təşkil edilir.

Qeyd edək ki, bu günə kimi Naxçıvan Muxtar Respublikasındakı məktəbəqədər təhsil müəssisələri ümumölkə informasiya sistemlərinə inteqrasiya olunmamışdı. Bu da uşaqların bağçalara qəbulunda bir sıra problemlər yaradırdı. Valideynlər uşaqlarını bağçaya yerləşdirərkən çətinliklərlə üzləşirdi.

AZƏRTAC xəbər verir ki, məktəbəqədər təhsil müəssisələri ümumölkə informasiya sisteminə inteqrasiya olunduqdan sonra 2024-2025-ci tədris ilindən artıq valideynlər uşaqlarının bağçalara qəbulunu "Məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi" (www.bq.edu.az) vasitəsilə həyata keçirə biləcəklər. Belə ki, valideynlər ümumölkə üzrə bağçalara uşaq qəbulu ilə bağlı elandan sonra elektron kabinet yaratmaq imkanı əldə edəcəklər. Həmçinin bütün valideynlər uşaqların məktəbəqədər təhsil müəssisələrinə qəbulu ilə bağlı növbəyə yazıla biləcəklər. Məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemi 1 uşaq üçün maksimum 3 məktəbəqədər təhsil müəssisəsini seçmək imkanı verir. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum 5 gündən sonra həyata keçiriləcək. Növbə sorğuya çevrildikdən sonra valideyn 15 gün ərzində sənədləri müvafiq müəssisəyə təqdim edəcək və uşağın qəbulu aparılacaq.

Sistemin əsas məqsədlərindən biri də muxtar respublika üzrə məktəbəqədər təhsil müəssisələri və bu müəssisələr daxilində olan uşaqlar və məktəb heyəti haqqında bütün məlumatları vahid bir bazada saxlamaqdır.

## Fındıq bağları növbəti dəfə yoxlanılıb

**Aqrar Xidmətlər Agentliyinin (AXA) Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin (BMFM) Şəki rayon mərkəzi tərəfindən təsərrüfat sahiblərinin, əhalinin maarifləndirilməsi istiqamətində tədbirlər davam edir.**

Mərkəz tərəfindən keçirilən növbəti təlim "Qəhvəyi mərmər bağacığı (Halyomorpha halys) və ona qarşı inteqrir mübarizə tədbirlərinin işlənməsi" mövzusuna həsr olunub.

Təlim prosesində mərkəzin rəisi aqrar elmlər üzrə fəlsəfə doktoru Tələt Mehdiyev iştirakçılara zərərvericinin bioekoloji xüsusiyyətləri, biologiyası, yayılması, iqtisadi zərərləri və onunla mübarizə tədbirlərində ətraf mühiti, ekologiyanı, insan sağlamlığını, faydalı entomofaqları qoruyan inteqrir mübarizə sisteminin tətbiqinə geniş yer verilməsi barədə ətraflı danışıb. Bildirib ki, Balakən və Zaqatala rayonlarında feromon tələlərdən geniş istifadə etməklə aparılan biotexnoloji və məhdud dairələrdə kimyəvi mübarizə tədbirləri də inteqrir mübarizənin əsas tərkib hissəsidir və bölgədə biomüxtəlifliyin qorunmasında çox əhəmiyyətlidir.

Təlimdən sonra mərkəzin mütəxəssisləri tərəfindən rayonun meyvə bağlarında, xüsusilə Qax rayonu ilə həmsərhəd ərazilərdə yerləşən fındıq bağlarında növbəti monitorinq keçirilib və bu zaman qəhvəyi mərmər bağacığı aşkar edilməyib.

# Əkinçinin sağ əli

### Salyan melioratorları əkinlərin keyfiyyətli suvarılması üçün qabaqlayıcı tədbirlər görürlər

**Son illər su ehtiyatlarının kəskin azalması hiss olunmaqdadır. Bu, yay dövründə əkinlərin suvarılması zamanı özünü daha qabarıq şəkildə göstərir. Belə halda suyun hər kubmetrindən səmərəli istifadə etmək lazım gəlir.**



Cari ilin yaz-yay aylarında Kür çayında suyun səviyyəsinin görünməmiş dərəcədə aşağı olması nəticəsində suvarma suyunda müəyyən çətinliklər yarandı. Lakin Salyan Suvarma Sistemləri İdarəsinin kollektivi sudan istifadə birlikləri, habelə fermerlərlə əl-ələ verərək yaranmış çətinliyi aradan qaldırmağa müvəffəq oldular. Əhali arasında aparılan izahat və maarifləndirmə tədbirləri öz bəhrəsini verdi. İdarə rəhbərliyi ərazilər üzrə gecə növbətçiləri qrafikini tərtib etdi. Qrafikə əsasən, su işçiləri gecə vaxtları əkin sahələrində olub, sudan istifadəyə nəzarəti daha da artırdılar. Eyni zamanda kənd və qəsəbə ərazi nümayəndələri, yerli bələdiyyələr də bu işdə əllərindən gələni etdilər.

Görülən tədbirlər nəticəsiz qalmadı. Vegetasiya dövründə pambıq sahələri lazımi qədər su içdi. Canı günəş və suda olan pambıq kolları normal boy ataraq bar verməyə başladılar. Lakin sentyabr və oktyabr ayının birinci ongünlüyünün yağmurlu keçməsi pambıqçılıq üçün fəsadlar törətdi. Davamlı olaraq yağan yağışlar ona səbəb oldu ki, kollar yenidən göyərərək boy atmağa başladı. Daban qozalar suyun içində qalaraq çürüdü. Mütəxəssislərin dediyinə görə, bu, məhsuldarlığa təsir edəcək. Ona görə də kənd təsərrüfatının havadan asılı olduğunu yaxşı bilən fermerlər günün hər saatından daha səmərəli istifadə edərək itkini minimuma endirməyə çalışırlar.

Salyan rayonunun Şorsulu kənd sakini Ələsgər Eyvazov təcrübəli əkinçi və orta ixtisas təhsilli aqronomdur. O, öz pay torpağı ilə yanaşı, həmkəndlilərindən hər il icarəyə sahə götürüb pambıq əkir. Söhbət zamanı bu ilin pambıqçılıq üçün o qədər də əlverişli olmadıdğını söylədi: "Pambığın birinci suyunda müəyyən çətinliklərlə qarşılaşdıq. Ancaq sağ olsun su işçiləri. Gecəli-gündüzlü çalışaraq yaranmış gərginliyi aradan qaldırdılar. Hamı sahəsini vaxtında suvarmaq istəyirdi. Kür çayında isə, demək olar ki, su yox idi. Sonradan Mingəçevirdən su verildi. İşlər qaydasına düşdü. Yaxşı məhsul ərsəyə gətirdik. Lakin sentyabrda və oktyabrın əvvəllərində yağan yağışların ziyanı az olmadı. Neyləmək olar?! Belə bir deyim var: "El ilə gələn dərd-bəla toy-bayramdır". Çalışırıq, məhsulu son qozasına kimi yığaq. Amma taxıl əkini yubanır. Pambığı yığıb qurtaran kimi gərək təcili şum edib taxıl əkək".

Salyan melioratorları da gələn il əkin sahələrinin vaxtında və keyfiyyətli şəkildə suvarılması üçün tədbirləri davam etdirirlər. Qeyd etmək lazımdır ki, idarənin balansında 1183 kilometr su kanalı, 59 su nasosu stansiyası, 1646 hidrotexniki qurğu vardır. Onların vasitəsilə cari il rayondakı 46 min 5 hektar əkin sahəsi su ilə təmin edilmişdir. Mövcud əkin sahələrindən 16 min 879 hektarı taxıl, 8 min 682 hektarı pambıq, 11 min 577 hektarı yem bitkiləridir ki, onlar da müvafiq qaydada 2-3 dəfə suvarılmışdır.

Hazırda gələn ilin məhsulu üçün əkilən taxıl, habelə təzə əkilən yonca sahələri suvarılır. Bunun üçün nasoslar vasitəsilə kanallara saniyədə 10-12 kubmetr su vurulur. Cari təsərrüfat ili başa çatmaqdadır. İndi hər bir fermer, torpaq mülkiyyətçisi gələn il daha yüksək məhsul, daha çox qazanc əldə etmək haqda fikirləşir. Bu baxımdan su təminatı müstəsna əhəmiyyət kəsb edir. Odur ki, melioratorlar öz üzərlərinə düşən vəzifələri bilərək lazımi tədbirlər görürlər. İlin əvvəlindən ötən 10 ay ərzində suvarma kanallarında 73,8 kilometr hamarlama, 381,8 kilometr lildən təmizləmə işi görülmüş, suvarma kanalları üzərində olan 83 hidrotexniki qurğu, eyni zamanda 18 nasos stansiyası və 63 nasos aqreqatı təmir edilmişdir.

Su həyatdır, bolluqdur. Bunu yaxşı bilən Salyan melioratorları çoxillik təcrübələrinə və qabaqcıl ənənələrinə sadiq qalaraq əkinlərin vaxtında və keyfiyyətlə suvarılmasında fermerlərin, çörəyi torpaqdan çıxan hər kəsin yanında olmağa çalışırlar.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Torpaq kəndlinin əməyini əvəzsiz qoymur

### Şabranlı fermerlər bu ili də uğurlu nəticələrlə yola salmağa köklənibləр



**Məlumdur ki, ölkə iqtisadiyyatının qarşısına qoyulan əsas vəzifələrdən biri karbohidrogen ehtiyatlarından asılılığın aradan qaldırılmasıdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər sayəsində xeyli nəticələrə nail olunub. Xüsusən qeyri-neft sektorunun əsas sahələrindən sayılan kənd təsərrüfatında nəzərəçarpacaq irəliləyiş əldə edilib.**

Şabran rayonu da ölkədə gedən bu mühüm işlərdən geridə qalmamağa çalışır. Bunu cari ilin ötən üç rübü ərzində görülən işlər də aydın göstərir. Bu müddət ərzində rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri 228 milyon 187,6 min manat təşkil edib. Ümumi məhsul buraxılışının həcmində istehsal sahələrinin xüsusi çəkisi 86,1, xidmət sahələrinin xüsusi çəkisi 13,9 faiz olub.

Rayonun kənd təsərrüfatı əməkçiləri də ötən dövrdə sanballı uğurlar qazanıblar. Şabranlı fermerlər yaxşı başa düşürlər ki, kənd təsərrüfatı makroiqtisadi sabitliyin saxlanılması, qeyri-neft sektorunun və regionların inkişaf etdirilməsi, ən başlıcası isə ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Aqrar sektor əməktutumlu sahə olduğundan həm də məşğulluğun təminatında önəmli xüsusi çəkiyə malikdir. Bu sahədə konkret rəqəmlərə gəldikdə, statistikaya görə, cari ilin yanvar-sentyabr aylarında rayon üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 132 milyon 486,9 min manata çatıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 10,2 faiz çoxdur.

Hazırda rayonda kənd təsərrüfatı məhsullarının yığımı davam edir. Bizə verilən son məlumata əsasən, dənlilərin və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 14 min 587,1 hektarı biçilmiş və həmin sahələrdən 35 min 245,5 ton və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,7 faiz çox məhsul götürülmüşdür. Bu, orta hesabla hər hektardan 24,2 sentner məhsul deməkdir. Bundan əlavə, 360 hektar qarğıdalı sahəsindən 3 min 266,8 ton məhsul (hər hektardan 90,7 sentner) biçilmişdir. Ümumilikdə qarğıdalı dəni də nəzərə alınmaqla rayon üzrə taxıl istehsalı 38 min 512,3 ton (hər hektardan 25,8 sentner) olmuşdur. Bir daha təkrar edirik ki, bunlar son nəticələr deyil.

Paralel olaraq sahələrdən 928,4 ton kartof, 4 min 215,5 ton tərəvəz, 7500 ton meyvə, 3583,7 ton üzüm, 3 ton bostan məhsulları toplanmışdır. 1011,8 hektardan isə 8427,4 ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 2,5 dəfə çox yem bitkiləri yığılaraq quru ot kimi tədarük edilmişdir.

Heyvandarlıq sahəsində də göstəricilər ürəkaçandır. Hesabat dövründə Şabranda 15 min 249,2 ton ət, 11 min 273 ton süd, 9,2 milyon ədəd yumurta, 81,3 ton yun istehsal olunmuşdur. Təsərrüfatlarda 25 min başdan çox mal-qara (o cümlədən 11,7 min baş inək və camış), 48 min baş qoyun və keçi bəslənilir.

Rayonda şəxsi təsərrüfatların sayı da artıb. Üzüm və taxılçılıq sahələrində şəxsi təsərrüfatlarda istehsal edilən məhsul ümumi məhsulun yarıdan çoxunu təşkil edir. Quşçuluq və heyvandarlıqda da əvvəlki illərlə müqayisədə sahibkarlıq subyeklərinin sayı çoxalıb.

Kənd təsərrüfatı sahəsində ilin əvvəlindən qazanılan göstəricilər şabranlıların bu ili də uğurla yola salacaqlarından xəbər verir. Ümumiyyətlə, Şabran kəndlisinin torpağa bağlılığı bütün dövrlərdə nöhkəm olub və bu gün də belədir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Goranboyda 17 tondan artıq tütün təhvil verilmişdir

**Son illər genişmiqyaslı tədbirlər həyata keçirilməklə aqrar sektorda çalışanlara geniş imkanlar yaradılmışdır. Bu hesaba ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı xeyli sürətlənmişdir.**

Belə sahələrdən biri də tütünçülükdür. Son illər Goranboyda da tütünçülüyə maraq artmışdır. Hər il Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçanaq kəndlərində yeni tütün plantasiyaları salınır. İlk dəfə cəmi 4 hektarda tütün əkilirdisə, artıq bu rəqəm 8 hektara çatdırılmışdır.



Qeyd edək ki, cari təsərrüfat ilində Zeyvədə 2 hektar, Şəfəq, Qaraçinar, Yenikənd və Qarqucaq kəndlərinin hər birində 1,5 hektar tütün əkilmişdir. Həyata keçirilən yüksək aqrotexniki tədbirlər öz bəhrəsini vermiş, plantasiyalardan 17 ton məhsul yığılaraq qəbul məntəqəsinə təhvil verilmişdir ki, bu da ötən illə müqayisədə 5 ton çoxdur.

***S.ƏLİYEV, "Azərbaycan"***

# "Azərkosmos" BMT-nin "Qlobal Saziş" təşəbbüsündən yararlanacaq

**Xəbər verildiyi kimi, "Azərkosmos" Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı Ofisi ilə BMT-nin "Qlobal Saziş" təşəbbüsünə qoşulmasına dair əməkdaşlıq sənədi imzalayıb.**




"Azərkosmos" "Qlobal Saziş"ə qoşulmaqla kosmik fəaliyyət sahəsində davamlılığı planlaşdırmaq, həyata keçirmək, daxili imkanlarını gücləndirmək və beynəlxalq miqyasda daha geniş biznes ictimaiyyəti və digər maraqlı tərəflərlə öz təcrübəsini bölüşmək imkanı əldə edəcək. Həmçinin "Azərkosmos" ilə BMT arasında təcrübə mübadiləsinin aparılması, "Azərkosmos"un "Qlobal iqlim dəyişikliklərinin Azərbaycan Respublikasına təsirlərinin qiymətləndirilməsi üzrə hesabatı"na dair müzakirələr nəzərdə tutulur.

Qeyd edək ki, BMT-nin təşəbbüsü ilə 2000-ci ildə əsası qoyulmuş "Qlobal Saziş" 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşlarını bir araya gətirən dünyanın ən böyük korporativ dayanıqlılıq şəbəkəsidir. O həm də 130 ölkəni əhatə edən 6000 biznes iştirakçısını və digər maraqlı şəxsləri özündə cəmləşdirən geniş korporativ vətəndaş təşəbbüsüdür.

"Qlobal Saziş" üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır. Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş"i millətlərlə işləməyə, dünya üzrə müəssisələr və özlərinin təşkilatları ilə təcrübələri bölüşməyə, həmkarlar ittifaqları və digər qruplar ilə danışıqlar aparmağa imkan yaradır. O, şirkətlərdən tələb edir ki, uzun müddət beynəlxalq səviyyədə qanuni müqavilə və bəyannamələrdə universal kimi qəbul edilən on prinsipi gündəlik təcrübələrinə daxil etsinlər və öz təsir dairələrində onun təbliğatını həyata keçirsinlər. Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş"ini dəstəkləməklə iştirakçılar dörd sahədə (insan hüquqları, əmək normaları, ətraf mühitin qorunması və korrupsiyaya qarşı mübarizə) müəssisə təcrübələrini inkişaf etdirməyə istiqamətlənən şirkətlər şəbəkəsinin bir hissəsi olmağı seçir ki, bu da qloballaşmanın daha ədalətli olmasına kömək edir.

"Qlobal Saziş"in 4 əmək prinsipi var: assosiasiya və kollektiv danışıqlar hüququnun səmərəli tanınması, məcburi və icbari əməyin bütün formalarının, uşaq əməyinin, məşğulluqda və peşə üzrə hər bir növ diskriminasiyanın aradan qaldırılması. Məhz bu prinsiplər Beynəlxalq Əmək Təşkilatının şirkətlərlə birbaşa işləmək təcrübəsini inkişaf etdirir.

Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş" Şəbəkəsinin əmək prinsipləri Beynəlxalq Əmək Təşkilatının 10 prinsipi arasında olsa da, onların tətbiqi heç də asan deyil. Bir çox şirkətlər onlardan nə tələb olunduğunu və bu prinsipləri müdafiə etmək üçün daha nələr edə biləcəklərini bilməkdə çətinliklərlə üzləşirlər. Belə ki, əmək təcrübələrində məqsədi olan yanaşmaları tamamlamaq vasitəsi kimi əməkdaşlıq da daxil olmaqla, geniş öyrənmə, dialoq və birgə fəaliyyət sahəsi var.

Bütün bunların fonunda "Azərkosmos" BMT-nin "Qlobal Saziş"inin iştirakçısı olaraq öz fəaliyyətini 2021-2025-ci illəri əhatə edən "Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi" də daxil olmaqla, ölkənin davamlı inkişaf prioritetlərinə, "yaşıl" inkişaf istiqamətlərinə, siyasətlərinə və öhdəliklərinə uyğunlaşdıracaq. "Azərkosmos", o cümlədən davamlı inkişafla bağlı 17 hədəf üzrə BMT-nin təcrübəsindən yararlanacaq.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# NASA maliyyə problemi səbəbindən Marsın tədqiqini dayandırıb

Alimlərin Marsda həyatın olub-olmadığını, qırmızı planetdə insanın yaşaması imkanlarını araşdırdığı bir şəraitdə ortaya mühüm bir problem çıxıb. AZƏRTAC "Nature Science" jurnalına istinadla xəbər verir ki, NASA Marsdan torpaq və süxur nümunələrin gətirilməsi missiyasını dayandırıb. ABŞ-nin aerokosmik agentliyi bildirib ki, hazırda bu məsələdə ciddi maliyyə problemləri yaranıb.



NASA bəyan edib ki, ötən həftə bu missiya ilə məşğul olan 3 tədqiqat mərkəzinə həmin istiqamətdə fəaliyyəti dayandırmaq tövsiyə edilib. Belə ki, agentlik 2024-cü il üçün büdcə layihəsində Marsdan nümunələr gətirmək məqsədilə 949,3 milyon dollar vəsait ayrılmasını tələb etsə də, büdcəyə nəzarət üzrə alt komissiya bu məqsədlər üçün cəmi 300 milyon dollar ayırıb. Belə olan şəraitdə NASA-nın Marsdan nümunə gətirmək missiyası ilə yanaşı, digər layihələrində də axsama ola bilər.

Hazırda problemin nə qədər davam edəcəyi məlum deyil, amma NASA indi "Perseverance" missiyasının Marsda topladığı nümunələri alternativ yollarla Yerə gətirmək üzərində iş aparır.

Bununla yanaşı, ABŞ-nin aerokosmik agentliyi bu yaxınlarda "Bennu" asteroidindən toplanan bəzi süxur nümunələrini də gətirməyə nail olub.

# Veb-texnologiyaları üzrə "Skills Azərbaycan 2023" milli yarışının final mərhələsinə start verilib






Noyabrın 18-dən etibarən veb-texnologiyaları üzrə "Skills Azərbaycan 2023" milli yarışının final mərhələsinə start verilib.

AZƏRTAC xəbər verir ki, iki gün ərzində iştirakçılar "Speed Test", "Interaction", "Service side" və "Layout" kimi dörd fərqli modul üzrə praktiki tapşırıqları yerinə yetirəcəklər. Yaşı 21-ə qədər olan gənclər arasında keçirilən "Skills Azərbaycan 2023" milli yarışında həm yerli, həm beynəlxalq mütəxəssislərdən ibarət münsiflər heyəti iştirak edir. Onların arasında veb-texnologiyaları üzrə "WorldSkills Korea"nın baş eksperti də yer alır.

Milli yarışın qalibləri noyabrın 25-dən dekabrın 1-dək Asiya ölkələri arasında keçirilən regional "WorldSkills Asia Abu Dhabi 2023" yarışında Azərbaycanı təmsil edəcəklər.

"WorldSkills" təşkilatının veb-texnologiyaları üzrə baş eksperti Şəhriyar Seyfəlili bildirib ki, yüksək nəticə göstərən iştirakçılar "WorldSkills Azerbaijan" milli komandasına daxil olaraq 80-dən çox ölkənin qatılacağı nüfuzlu beynəlxalq "WorldSkills Lyon 2024" yarışında iştirak etmək fürsəti qazanacaqlar. Yarışların keçirilməsində məqsəd "World Skills Lyon 2024"də ölkəmizi təmsil etmək və gənclər arasında peşə təhsilinə marağı artırmaqdır.

"Yarış 3 mərhələdən ibarətdir. 500-dən çox iştirakçıdan hər ixtisas üzrə 10-20 nəfəri finala vəsiqə qazanıb. Qarşıda "WorldSkills" həftəsidir və daha 6 ixtisas üzrə yarışlar keçiriləcək. Yarış qaliblərindən ibarət 5 nəfərlik milli komanda formalaşacaq və onlar 9 ay ərzində "World Skills Lyon 2024"ə hazırlaşacaqlar. "Skills Azərbaycan 2023" müxtəlif bacarıq istiqamətlərini əhatə edən gənclər arasında keçirilən milli yarışdır. Bacarıqlar arasında veb-texnologiyalar, 3D oyun sənəti, aşpazlıq, bərbər ixtisası, zərgərlik, qaynaqçı ixtisası və kibertəhlükəsizlik kimi sahələr yer alır", - deyə Şəhriyar Seyfəlili söyləyib.

"WorldSkills Korea"nın veb-texnologiyaları üzrə baş eksperti Ryu Seunglyul yarışda qalib gələnlərin Koreyadakı təlimlərdə iştirak edəcəyini bildirib: "Təlimlərdə ümumilikdə 15 nəfər iştirak edəcək. Onlardan 2 nəfəri veb-texnologiyaları üzrədir. Təlimlər iki həftə davam edəcək və sonda iştirakçılar sertifikatla təltif olunacaqlar".

Qeyd edək, veb-texnologiyaları üzrə "Skills Azərbaycan 2023" milli yarışı Peşə Təhsili üzrə Dövlət Agentliyi və "WorldSkills Azerbaijan" təşkilatının əməkdaşlığı, "Bestcomp Group" və "ATL Academy"nin sponsorluğu çərçivəsində keçirilir.




## "Spot"un yeni nitq funksiyası

**"Boston Dynamics" şirkətinin 4 ayaqlı "Spot" robotuna insan nitqi vasitəsilə müraciət etmək öyrədilib. Bunun üçün şirkət süni zəka əsaslı "ChatGPT" çatbotundan və açıq mənbəli koda sahib böyük dil modellərindən istifadə edib.**



Robot tərtib edilən mətnin danışıq nitqinə çevrilməsində iştirak edən səsgücləndiricilər ilə təchiz olunub.

Sınaq zamanı mütəxəssislər "Spot"un sisteminə hər şirkət otağının qısa ssenarisini yerləşdiriblər. Daha sonra o, kameraları vasitəsilə əldə edilən fotoları bu ssenarilər ilə birləşdirir. Robot bu məlumatlar sayəsində cavabları tərtib edir. "Spot" şirkət binasında ekskursiya keçirərək turistlərin suallarına cavab verib.

## Ən sürətli internet xətti

"Pekin-Uhan-Quançjou" adlı dünyanın ən sürətli internet xətti bu ay Çində istifadəyə verilib. Magistral fiberoptik xəttin uzunluğu 3000 kilometr, ötürmə sürəti isə saniyədə 150 filmdir. Başqa sözlə desək, sözügedən fiberoptik xətt məlumatları saniyədə 1.2 Tbit (terabit) sürətlə ötürür. Bu isə ABŞ-dəki analoqdan 3 dəfə sürətlidir.



İnternet xetti Tsinxua Universitetinin "China Mobile", "Huawei Technologies" və "Cernet Corporation" şirkətləri ilə birgə əməkdaşlığının nəticəsidir. Daha öncə mütəxəssislər düşünürdülər ki, saniyədə 1 Tbit sürətə sahib internet şəbəkələri 2025-ci ildən tez istifadəyə verilməyəcək. Lakin Çində bu fikir praktiki səviyyədə aradan qaldırıldı.

İstifadəyə verilmiş yeni magistral fiberoptik xətti Çinin gələcək internet texnologiyaları layihəsinin bir hissəsidir. Bu layihə artıq 10 ildir ki, hazırlanır.

Qeyd etmək lazımdır ki, dünyadakı əksər magistral internet şəbəkələri saniyədə 100 Gbit sürətlə çalışırlar. Hətta ABŞ-nin özündə saniyədə 400 Gbit sürətli internet şəbəkələrinə yenicə keçid edilib.

## Havanı 10 gün öncədən proqnozlaşdıran sistem yaradılıb

Hava proqnozunu 10 gün öncədən dəqiq tərtib edən süni zəka sistemi hazırlanıb.



"Google"un "DeepMind" laboratoriyasının məhsulu olan "GraphCast" adlı sistemin məlumatları Avropa Orta Müddətli Hava Proqnozları Mərkəzinin mütəxəssisləri tərəfindən analiz edilib. "GraphCast" Yeni Şotlandiya sahillərində "Li" qasırğasının baş verəcəyini sentyabrda 10 gün öncədən proqnozlaşdırmışdı. Standart proqnozlaşdırma sistemləri isə qasırğanın baş verəcəyini yalnız 6 gün öncədən bildirmişdilər. Bununla yanaşı, həmin sistemlər qasırğanın baş verəcəyi zaman və sahil zonasına çıxış yeri məsələlərində dəqiq proqnozları təqdim etməmişdilər.

Yeni sistem özündə "machine learning"i və diaqram neyron şəbəkəsini birləşdirib. Səbəb-nəticə əlaqələrinin analizi üçün sistem 40 illik meteorologiya məlumatları əsasında təlimatlandırılıb. Yüksək nəticələrə baxmayaraq, "GraphCast" hələ hazırlanma mərhələsindədir. Sistem siklonların hərəkətlərini dəqiq şəkildə təyin etsə də, ənənəvi üsullardan fərqli olaraq, onların göstəricilərini tərtib edə bilmir.

## "Apple"ın ilk elastik ekranlı cihazı

"Apple" son illər mürəkkəb məhsullar üzərində çalışır.



Şirkət süni zəka əsaslı məhsulların yaradılmasına il ərzində 1 milyard dollar investisiya ayırır. "Apple"ın hər il bu qədər vəsait ayırmaqda məqsədi onun "Google", "Microsoft" və "OpenAI" kimi şirkətlərə çatmaq istəməsidir.

Hazırda şirkət elastik ekranlı ilk cihazını istehsal etməyə hazırlaşır. "Apple"dan verilən məlumata görə, planşet "intensiv inkişaf" mərhələsindədir. Bunun məhz planşet olmasının səbəbi "iPad"lərin şirkət satışlarının nisbətən kiçik bir hissəsini təşkil etməsidir. Buna görə də potensial problemlər yaranarsa, onları həll etmək daha asan olacaq. Yeni cihaz haqqında hələlik planşetin tam açıldıqda ekranın maksimal diaqonalının 13 düymdən az olmayacağı məlumdur.

## Yutubdan önəmli yenilik

Yutub istifadəçilər tərəfindən platformaya yüklənən videolarla bağlı dəyişikliklər etməyə hazırlaşır. Belə ki, istifadəçilər süni zəkanın istifadəsi ilə tərtib edilmiş kontentləri platformaya yükləyən zaman onları xüsusi olaraq işarələməli olacaqlar.




Sosial şəbəkə bu yeni qaydaları yaxın aylar ərzində işə salacaq. Yutub qeyd edib ki, siyasi seçkilər, dünyanın müxtəlif nöqtələrində baş verən konfliktlər, səhiyyə sahəsində böhran və ya dövlət rəsmilərinin müzakirəsi kimi mövzularda süni zəka tərəfindən tərtib edilmiş videoları əsl videolardan ayıra bilmək imkanı xüsusi olaraq vacibdir.

Yeni qaydalara riayət etməyəcək və süni zəka vasitəsilə tərtib edilmiş videoları xüsusi şəkildə işarələməyəcək istifadəçilər videoservis tərəfindən cəzalandırılacaqlar. Belə ki, həmin istifadəçilərin videoları Yutubdan silinə, istifadəçilərin özləri isə videoservisin partnyorluq proqramından xaric oluna bilərlər.

Xüsusi işarələnməyə gəldikdə isə o həm videonun təsvir hissəsində, həm də videonun özündə əks olunacaq.

## "X"in bazar dəyəri kəskin enib

ABŞ-nin "Fortune" jurnalı "X"in (keçmiş "tviter") dəyərini açıqlayıb. İlon Mask ötən il şirkəti həddindən artıq baha qiymətə alaraq, bunun üçün 44 milyard dollar vəsait sərf etmişdi. Üzərindən cəmi bir il keçməsinə baxmayaraq, "X"in bazar dəyəri 19 milyard dollara enib, yəni 2 dəfə aşağı düşüb.



Qeyd etmək lazımdır ki, ümumi rəqəm bir işçiyə ayrılan payın dəyəri əsasında hesablanır. Şirkət işçilərə mükafat olaraq məhdudlaşdırılmış səhmlər almaq imkanı verir. Bir qiymətli kağızın dəyəri isə 45 dollardır. Açıqlamaya görə, "X" mart ayında işçilərə ümumilikdə 20 milyard dollar dəyərində səhmlər təklif edib.

Şirkətin bazar dəyərinin 55 faiz aşağı düşməsi şirkətdaxili sənədlərdə də əks olunub. Məlumata əsasən, bu, dəyərli kağızların ədalətli bazar qiymətləri direktorlar şurası tərəfindən təyin edilir. Lakin sosial platformanın alınmasından bir il ötsə də, bu şura tam şəkildə formalaşmayıb.

## İki ay şarj saxlayan smartfon

Müasir smartfon bazarının əsas problemlərindən biri mövcud modellərin yaxşı şarj saxlamaması, batareyanın zəif olmasıdır. Bu problemi aradan qaldıran yeni mobil telefon təqdim edilib. "Tank 3" adlı smartfonu Çinin "Unihertz" şirkəti istehsal edib. Onun çəkisi 666 qramdır.



"Tank 3" cihaz bazarda olan smartfonların əksəriyyətində olmayan bir çox funksiyaya malik super avtonom və möhkəm cihazdır. Birincisi, cihazın 23,800 mAh batareyası var. İstehsalçı bununla da istifadəçiyə 1800 saat gözləmə müddəti, 18 saat danışıq vaxtı və 38 saat oyun vəd edir. Üstəlik, smartfonun özü "powerbank" rejimində istifadə edilə bilər. İkincisi, smartfonda daxili gecəgörmə kamerası, 40 m lazer məsafəölçən, 1200 lümenli fənər və iki hərəkət düyməsi var.

Yeni cihaza, həmçinin 200 meqapiksellik əsas kamera və 50 meqapiksellik ön kamera əlavə edilib. Ekranın diaqonalı 6,79 düymdür. 120 Vt sürətli şarj batareyası cihazı bir saat yarım ərzində 0-dan 100 faizə qədər dolduracaq. "Tank 3" artıq "Aliexpress"də 500 dollara satışa çıxarılıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## "Samsung"un yeni süni zəka sistemi

"Samsung" "Gauss" süni zəka sistemini təqdim edib. Şirkət onu görkəmli alman riyaziyyatçısı Karl Fredrix Qaussun şərəfinə adlandırıb.




O, "machine learning"də istifadə edilən normal paylanma qanununun yaradıcısıdır. Gələcəkdə "Gauss" daha çox istifadəçi kütləsi üçün aktiv olacaq və istehlakçılar üçün nəzərdə tutulmuş "Samsung" tətbiqlərinə inteqrasiya ediləcək.

"Gauss"un tərkib hissəsini 3 süni zəka modeli təşkil edir: Mətn sorğularının emalı üçün olan "Gauss Language", fotoların emalı və tərtibatı üçün olan "Gauss Image" və proqram təminatı kodlarının tərtibatı üçün olan "Gauss Code". "Gauss Language" elektron məktubların yazılması və mətnlərin tərcüməsi kimi tapşırıqların yerinə yetirilməsi sayəsində iş effektivliyinin artırılması üçün nəzərdə tutulmuş generativ neyron şəbəkəsi rolunda çıxış edir. Bu alqoritmin tərkibinə bir neçə böyük dil modeli daxildir.

"Gauss Image" fotoların tərtibatı və redaktə olunması üçün nəzərdə tutulmuş alqoritmdir. Onun sayəsində fotoların tərzlərini dəyişmək, fotolara yeni elementlər əlavə etmək, o cümlədən aşağı keyfiyyətli fotoların keyfiyyətlərini yüksəltmək olar.

"Gauss Code" isə proqram təminatı kodlarının yazılmasında kömək edəcək alqoritmdir. "Samsung" əmindir ki, sözügedən alqoritm tərtibatçılara proqram kodlarının sürətlə yazılmasında yardımçı olacaq.

# Xüsusi Təyinatlı Qüvvələrin giziri Anar Nağıyevin şəhadətə yüksəlməsinin üçüncü ildönümü qeyd edilib

Qaradağ rayonunda Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin giziri Anar Nağıyevin şəhadətə yüksəlməsinin üçüncü ildönümünə həsr edilmiş anım mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və azadlığımız və suverenliyimiz uğrunda canından keçmiş qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla anılıb.

Sonra şəhidin həyat və döyüş yolu barəsində məlumat verilib. Şəhid gizir Anar Nağıyev 1989-cu il oktyabrın 30-da Gəncə şəhərində anadan olub. 2008-ci il yanvarın 5-dən 2009-cu il iyulun 3-dək müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2013-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı" kurslarını bitirib.

Vətən müharibəsində Qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı kimi mühüm tapşırıqları uğurla yerinə yetirib, şəxsi şücaət, peşəkarlıq, mərdlik və igidlik nümunələri göstərib. Gizir A.Nağıyev döyüşlərə Murovdağ istiqamətindən başlayıb. Ümumilikdə isə Kəlbəcər, Cəbrayıl, Füzuli, Qubadlı, Ağdərə, Xocavənd, Şuşa ərazisində gedən hərbi əməliyyatlarda iştirak edib. Anar Nağıyev oktyabrın 16-da Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüşlər zamanı düşmənin atdığı minaatandan qolundan və ayağından qəlpə yarası alıb. Füzuli hospitalına təxliyə olunsa da az müddətdən sonra təkidlə yenidən cəbhə zonasına qayıdıb. Anar Nağıyev Şuşanın işğaldan azad edilməsi uğrunda döyüşlərdə birbaşa iştirak etmək istəyirmiş. Buna görə də oktyabrın 27-də silahdaşlarının yanına qayıdaraq düşmənlə döyüşməyə davam edib. A.Nağıyev noyabrın 6-da Şuşada üzbəüz döyüşlər zamanı güllə yarası alıb. Noyabrın 8-də Azərbaycan bayrağı Şuşada dalğalandıqdan sonra "Şuşa alındı" deyərək şəhadətə qovuşub.

Şəhid Anar Nağıyev bir sıra hərbi əməliyyatların, o cümlədən Aprel döyüşlərinin də iştirakçısı olub.

Ölkə başçısının müvafiq sərəncamları ilə Anar Nağıyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aydın Hüseynov Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbədən, bu il sentyabrın 19-20-də keçirilən 24 saatlıq antiterror əməliyyatından bəhs edib. Bildirilib ki, ordu quruculuğuna yetirilən xüsusi diqqət, gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi istiqamətində görülən işlər nəticəsində üçrəngli bayrağımız uzun illər həsrətində olduğumuz həmin torpaqlarda dalğalanır, suverenliyimiz isə tam bərpa edilib.

"Xankəndidə Vətən müharibəsində əldə edilən Qələbənin üçüncü ildönümünə həsr olunan hərbi paradın keçirilməsi isə Azərbaycan xalqının, Silahlı Qüvvələrimizin nəyə qadir olmasının sübutu, dünyaya göndərilən bir mesaj idi. Təbii ki, torpaq, yurd həsrətimizin belə möhtəşəm zəfər və qələbələrlə başa çatması bizə asan başa gəlmədi. Bu yolda Anar Nağıyev kimi qəhrəman oğullarımızı qurban verdik. Hər birimiz o torpaqlara ayaq basdıqca şəhidlərimizi böyük minnətdarlıq hissi ilə xatırlayacaq, onların cəsarətini, məğrurluğunu və qorxmazlığını gələcək nəsillər arasında təbliğ edəcəyik", - deyə A.Hüseynov qeyd edib.

Şəhidin döyüş yoldaşları onunla bağlı xatirələrini bölüşüb, 44 günlük müharibə zamanı göstərdiyi çoxsaylı şücaət və igidlik nümunələrindən danışıblar.

Tədbirdə şəhidlərin ruhuna müqəddəs kitabımız olan Qurani-Kərimdən ayə və surələr oxunub, həmçinin mərsiyələr və vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 23.11.2023-cü ildə, gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# "Qərbi Azərbaycan: Maddi və mədəni irsimiz" layihəsi çərçivəsində hazırlanmış sayt fəaliyyətə başlayıb

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyilə Azərbaycan Kinematoqrafçılar İttifaqı tərəfindən həyata keçirilən "Qərbi Azərbaycan: Maddi və mədəni irsimiz" layihəsi çərçivəsində hazırlanmış western-azerbaijan.az saytı fəaliyyətə başlayıb.




Azərbaycan Kinematoqrafçılar İttifaqından AZƏRTAC-a bildirilib ki, saytda Qərbi Azərbaycanın tarixinə, tarixi mahallarına, soydaşlarımızın bu torpaqlarda yaratdığı maddi və mədəni irsə, ərazinin etnodemoqrafik vəziyyətinə, eləcə də "Qərbi Azərbaycan: Maddi və mədəni irsimiz" layihəsi çərçivəsində çəkilmiş "Sarı gəlin"in sorağında" tammetrajlı sənədli filminə həsr olunmuş bölmələr yaradılıb. Saytın mənbələr bölməsində Qərbi Azərbaycanın tarixinə həsr olunmuş elmi ədəbiyyatın, müxtəlif dövrləri əks etdirən xəritələrin və sənədlərin rəqəmsal surətləri yerləşdirilib. Azərbaycan, ingilis və erməni dillərində yayımlanan məqalələrdə Qərbi Azərbaycan ərazilərinin inzibati və mədəni mərkəzi olan İrəvan şəhəri də daxil olmaqla bütün mahallarda əcdadlarımız tərəfindən yaradılmış maddi mədəniyyət abidələri (qalalar, məscidlər, saraylar və s.), incəsənət nümunələri (xalçalar, tətbiqi sənət nümunələri), mədəni mühit (ədəbiyyat, teatr, təhsil, mətbuat) haqqında beynəlxalq ictimaiyyətə, eləcə də xalqımıza, xüsusən də gənc nəsilə tarixi mənbələr, rəsmi sənədlər, xəritələr, nadir fotolar vasitəsilə dolğun informasiya çatdırılır.

Qərbi Azərbaycanın maddi və mədəni irsinin təbliğinə həsr olunan və 3 dildə (Azərbaycan, ingilis və erməni) fəaliyyət göstərəcək saytın bundan sonra da Qərbi Azərbaycan İcması və AMEA Tarix institutunun Qərbi Azərbaycan Tarixi şöbəsi ilə əməkdaşlıq çərçivəsində genişləndirilməsi və daha da zənginləşdirilməsi nəzərdə tutulur.

Saytda təqdim olunan materiallar, eyni zamanda Qərbi Azərbaycanın tarixi, maddi və mədəni irsi ilə maraqlanan yerli və xarici alimlər, tədqiqatçılar, tələbələr və yuxarı sinif şagirdləri, dünya azərbaycanşünasları üçün istiqamətverici mənbə rolunu oynayacaq.

# Berlində almaniyalı türkoloq alimin Şuşaya həsr etdiyi kitab təqdim olunub

Berlində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində türkoloq alim, nəsimişünas, Qafqaz regionunun tədqiqatçısı, Almaniyanın Giesen Universitetinin dosenti Mixael Reynhard Hessin müəllifi olduğu "Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" adlı kitabın təqdimat mərasimi keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, siyasi elmlər doktoru Qurban Ələkbərovun moderatorluğu ilə keçirilən tədbirdə Berlin, Ştutqart, Köln şəhərlərində yaşayan Azərbaycan və türk icmalarının təmsilçiləri, yerli ictimaiyyətin nümayəndələri və alman alimlər iştirak ediblər.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev bildirib ki, bu nəşr Avropada Şuşanın tarixi və mədəni irsi haqqında yüksək səviyyədə yazılmış ilk kitabdır. Onun sözlərinə görə, nəşr Azərbaycan tarixinin və mədəniyyətinin Avropada öyrənilməsində çox böyük rol oynayacaq. Alimə təşəkkürünü bildirən səfir əlavə edib ki, Hess nəinki Avropada, ümumiyyətlə, Qərbdə Azərbaycan dilini yüksək səviyyədə bilən yeganə alimdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov təqdimat mərasimində iştirak edən soydaşlarımıza və alman dostlarımıza minnətdarlığını bildirib. O, Hessin ölkəmizlə əlaqələrinin yaranmasından danışıb və alimin ingilis, alman dillərində nəşr olunan kitabında əsaslandırılmış, təkzibolunmaz tarixi faktların və elmi fikirlərin yer aldığını vurğulayıb. Qeyd edilib ki, bu kitablar Avropa cəmiyyətinin Azərbaycan həqiqətləri haqqında məlumatlandırılmasında çox ciddi rol oynayır. "Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, komitə Azərbaycan həqiqətlərinin dünyada geniş yayılması işini davam etdirir və bu baxımdan Azərbaycan tarixini olduğu kimi əks etdirən "Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" kitabının müxtəlif ölkələrdə təqdimatlarının keçirilməsi nəzərdə tutulub", - deyə F.Muradov bildirib.

Tədbir Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Kanadada fəaliyyət göstərən Azərbaycan diasporunun təşkilatçılığı ilə hazırlanmış "Şuşanın tarixi" ("History of Shusha") adlı filmin nümayişi ilə davam edib.

M.R.Hess çıxışında kitabın yaranma ideyasından danışıb, əsas məqsədinin Qarabağın və Şuşanın Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixindəki zəngin irsini oxucuların diqqətinə çatdırmaq olduğunu qeyd edib.

Tədbirdə çıxış edən İrəvan xanı Hüseynəli xanın nəslinin nümayəndəsi Əmir Əli Sərdari İrəvani, bəstəkar, musiqişünas və publisist Elmir Mirzəyev, alman professor Hartviq Şults, alman publisist Mattias Volf müəllifi bu mühüm mədəni hadisə münasibətilə təbrik edib və xoş arzularını çatdırıblar.

# Bakıda quraqlığadavamlı və yerli iqlimə uyğun yaşıllıq guşələri yaradılır

Paytaxt Bakıda quraqlığadavamlı və yerli iqlimə uyğun ağac və kollar əkilir.



Bu barədə AZƏRTAC-a Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, ölkə Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Bakı şəhərində yaşıllıq zolaqlarının artırılması, ekoloji tarazlığın bərpası və ətraf mühitin mühafizəsi istiqamətində işlər davam etdirilir. Mövsümlə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən paytaxtın müxtəlif ərazilərində kütləvi ağac əkilməsi və yaşıllaşdırma işləri aparılır. Son vaxtlar Bakının flora müxtəlifliyi xeyli artırılıb, həmçinin şəhərin iqlim şəraitinə uyğunlaşmış yerli ağac növlərinin də əkilməsi həyata keçirilir. Eyni zamanda qlobal iqlim dəyişiklikləri və su qıtlığı təhlükəsi ilə əlaqədar Bakı şəhərində quraqlığadavamlı bitkilərin, yerli iqlimə uyğun, həmçinin müxtəlif rəngdə çiçəklənən ağac və kolların əkilməsinə üstünlük verilir.

Mövsüm ərzində paytaxtda Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən şəhərin iqliminə uyğun və quraqlığadavamlı, xüsusi rəng çalarları ilə seçilən, qırmızı, sarı, ağ rəngdə gülləri ilə şəhərə xüsusi gözəllik verəcək Lənkəran akasiyası, çezalpiniya, jumolas, qlisiniya əkilməsi, yeni formada yaşıllıq guşələrinin yaradılması həyata keçirilir. Hazırda yeni kollar sakinlərimizin daha çox olduqları gəzinti və istirahət yerlərində - "Mərkəzi", "Qış", "Atatürk", "Gənclik" və "Nizami Gəncəvi" parklarında, əsas prospekt və küçələr boyunca əkilir. Həmçinin əsas prospekt və keçələrdəki ağacların yanına sarmaşıqlar əkilir.

Eyni zamanda sakinlərə öz həyətlərində bu cür ağac və kolların əkilməsi tövsiyə olunur.

# Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli leysan gözlənilir

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntı tədricən kəsiləcək. Mülayim cənub-şərq küləyi əsəcək, səhər arabir güclənəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti, bəzi yerlərdə 16-18° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 15-20° isti, dağlarda gecə 4° şaxtadan 1°-dək isti, gündüz 5-10° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10°, gündüz 17-22° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 16-21° isti, dağlarda gecə 5-8°, gündüz 11-15° isti olacaq.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasi şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5328**
**Sifariş 2963**

**Qiyməti 40 qəpik**